**Əlixan Musayev**

# Cənnətin açarı

**Redaksiya heyəti:**

Əlixan Musayev

Mübariz Qarayev

Aydın Salehli

بسم الله الرحمن الرحيم

## *Mərhəmətli və Rəhmli Allahın adı ilə!*

## Müqəddimə

Həqiqətən, şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik. Nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə, onu azdıran, kimi də azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, O təkdir şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd səllallahu aleyhi və səlləm Onun qulu və rəsuludur.

Şübhəsiz, ən xeyirli kəlam Allahın Kəlamı, ən doğru yol da Muhəmməd səllallahu aleyhi və səlləmin yoludur. Habelə, ən pis əməl *dinə əlavə edilən* yeniliklərdir. Hər bir əlavə bidət, hər bir bidət zəlalət və hər bir

zəlalət Cəhənnəmə aparan yoldur. Sonrasına gəlincə...

Müsəlmanın öz həyatında önəm verdiyi əməllərin ən fəzilətlisi və vaxtını sərf etdiyi əməllərin ən faydalısı, pak və müqəddəs Rəbbini zikr etməsi və davamlı olaraq Ona dua etməsidir. Heç şübhəsiz ki, bu, insanın vaxtını sərf edəcəyi və canını fəda edəcəyi əməllərin ən xeyirlisidir. Hətta bu, insanın səadətə qovuşması, rahatlıq tapması, qəlbinin sakitləşməsi və hər bir işində uğur qazanması üçün səbəb olan əməllərin ən əzəmətlisidir. Bu əməl, insanın dünyada və axirətdə nail olacağı hər bir xeyrin açarıdır.[1]

Hərgah, Allah öz quluna bu açarı verərsə, xeyir qapısını onun üzünə açar. Yox əgər onu bu açardan məhrum edərsə, xeyir qapısı onun üzünə bağlı qalar.[2]

---

[1] Abdurrəzzaq əl-Abbad, "əz-Zikr və Dua fi Dovil-Kitab vəs-Sünnə", səh: 5.

[2] İbn əl-Qeyyim əl-Cövziyyə, "əl-Fəvaid", səh: 127.

Bu kitabın mövzusu olduqca mühüm, mətni isə yığcamdır. Çünki bu kitab, əfv olunmaq, bağışlanmaq və Allahın rəhmətinə qovuşmaq xüsusunda Qurandan və hədislərdən seçilmiş duaları özündə cəm edir. Bu dualar mömininin Cənnətə daxil olmasına kömək edən açardır. Səhih hədisdə rəvayət edilir ki, Rəsulullah ﷺ demişdir: **"Heç birinizi, əməli Cənnətə daxil edib, Cəhənnəm odundan qoruya bilməz. Yalnız Allahın rəhməti sayəsində *buna nail ola bilər."***[1] Digər hədisdə isə o, demişdir: **"Sizlərdən heç kəsin əməli onu *əzabdan* xilas etməyəcək."** *Səhabələr* soruşdular: "Səni də, ya Rəsulullah?" O dedi: ***"Bəli,* məni də. Yalnız Allahın mənə mərhəmət göstərməsi istisnadır..."**[2]

Bu iki hədisdən bizə aydın olur ki, Cənnəti qazanmağın və Cəhənnəmdən qurtulmağın yolu yalnız Allahın mərhəmət gös-

[1] Səhih Muslim, 2817.

[2] Səhih əl-Buxari, 6463; Səhih Muslim, 2816.

tərməsi və lütf etməsi ilə mümkündür. Bu mərhəmətə isə iman gətirmək və saleh əməllər etməklə nail olmaq olar. İbn Həcər رحمه الله demişdir "Adam nicat tapmaq və yüksək dərəcələrə nail olmaq üçün etdiyi əmələ arxayın olmamalıdır. Belə ki, yalnız Allahın müvəffəq etməsi sayəsində saleh əməl etmək, habelə Onun qoruması sayəsində də günah işdən çəkinmək mümkündür. Bütün bunlar da Allahın lütfü və mərhəməti sayəsindədir."[1]

Əzəmətli və qüdrətli Allahdan, Onun gözəl adları və uca sifətləri ilə diləyirik ki, bizim bu əməlimizə bərəkət versin, onu məhz Allahın rizasını qazanmaq xatirinə edilən əməllərdən etsin, bunun sayəsində bizə savab və mükafat bəxş etsin, üstəlik, bu kitabı, onu oxuyub, içində yazılanlara əməl edən və onu hər tərəfə yayan kimsələr üçün faydalı etsin. Həqiqətən də, bu lütf Allahdandır və O, buna qadirdir.

---

[1] İbn Həcər əl-Əsqəlani, "Fəth əl-Bari", 11/297.

İnsanı yaxşı işlər görməyə müvəffəq edən və onu doğru yola yönəldən, məhz Allahdır. Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur. Peyğəmbərimizə, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!

# Qayəmiz

Əziz oxucu, bil ki, bu kitabı tərtib etməkdə qayəmiz əfv olunmaq, bağışlanmaq, Allahın rəhmətinə qovuşmaq və Ona tövbə etmək xüsusunda Qurandan və hədislərdən seçib cəm etdiyimiz duaları sənə xatırlatmaqdır. Həmçinin, bu əməli etməkdə qayəmiz, həmin duaları əldə etməyi sənin üçün asanlaşdırmaq və beləliklə də, həm özümüzün, həm də sənin çoxlu xeyir və savab qazanmağına vəsilə olmaqdır.

Allahın rəhmətinə qovuşmağın yolları çoxdur. Məsələn, Peyğəmbər ﷺ demişdir: **"Yerdəkilərə rəhm edin ki, göydəki *Allah da* sizə rəhm etsin."**[1] Yaxud: **"Rəhm etməyən kimsəyə rəhm edilməz."**[2] Lakin qeyd etmək lazımdır ki, Allahın rəhmətinə qo-

---

[1] Sunən Əbu Davud, 4941; Sunən ət-Tirmizi, 1/350; Musnəd İmam Əhməd, 2/160; Silsilə əl-Əhadis əs-Səhihə, 925.

[2] Səhih əl-Buxari (6013); Səhih Muslim, 6170.

vuşmağa səbəb olan əməllərin ən əzəmətlisi, duadır.

İbn Əbu əl-İz ﵀ demişdir: "Bəndəni Allaha dua etməyə yönəldən məhz onun pak və müqəddəs olan Rəbbidir. Bu xeyir Allahdandır, tamamı da Ona aiddir. Necə ki, Ömər ibn əl-Xattab ﵁ demişdir: "Mən duanın necə qəbul olunacağından narahat deyiləm. Mən ancaq dua etməyə müvəffəq olub-olmayacağımdan narahatam. Əgər dua etməyə müvəffəq olaramsa, onun nəticəsini görməyə də müvəffəq olaram." Həmçinin, möhtərəm tabiinlərdən biri, Mutarrif ibn Abdullah ibn əş-Şixxir ﵀ demişdir: "Görəcəyim *bütün* işlərə nəzər saldım, gördüm ki, bunların başlanması da, tamamlanması da, Allahın istəyinə bağlıdır və baxdım ki, bunlara müvəffəq olmağın çarəsi ancaq dua etməkdir."[1]

[1] İbn Əbu əl-İz əl-Hənəfi, "Şərh əl-Əqidə ət-Təhaviyyə", 1/468-469.

## Ayə ilə hədisin izahı

Quranda uca Allah bizə möminlərin öz əməlləri sayəsində Cənnətə daxil olacaqlarını xəbər verir. Hədisdə isə xəbər verilir ki, heç kəsin əməli onu Cənnətə daxil edib, Cəhənnəm odundan qoruya bilməz.[1] Belə isə, ayə ilə hədisi necə cəm etmək olar?

İbn Həcər ﷫ demişdir: “İbn Bəttal bu hədislə, uca Allahın **“Etdiyiniz əməllər sayəsində varis olduğunuz Cənnət budur”**[2] ayəsini cəm edib demişdir: “Bu ayə, möminlərin öz əməlləri sayəsində Cənnətdəki mərtəbələrə yerləşəcəklərinə dəlalət edir. Belə ki, əməllərin fərqli olmasından asılı olaraq, Cənnətin mərtəbələrinə yerləşmək də fərqlidir. Hədisdə deyilən isə, Cənnətə daxil olub, orada əbədi qalmağa aiddir.”

---

[1] Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **“Heç birinizi, onun əməli Cənnətə daxil edib, Cəhənnəm odundan qoruya bilməz. Yalnız Allahın rəhməti sayəsində *buna nail ola bilər*”** (Səhih Muslim, 2817).

[2] əz-Zuxruf, 72.

Sonra o, bu izaha uca Allahın: **“Sizə salam olsun! Etdiyiniz *yaxşı* əməllərə görə Cənnətə daxil olun!”**[1] ayəsini əlavə etmiş və zahirən bu ayənin də, əməllər sayəsində Cənnətə daxil olmağa dəlalət etdiyini bildirmiş və bunu belə izah etmişdir: “Bu ayə yığcam mənadadır, hədis isə onu açıqlayır. Yəni, əməlləriniz sayəsində Cənnətin mərtəbələrinə və qəsrlərinə daxil olun. Bu ayə heç də, əməllər sayəsində Cənnətə daxil olmağa dəlalət etmir. Həmçinin, demək olar ki, hədis bu ayəni izah edir. Yəni Allahın sizə olan mərhəməti və lütfü sayəsində, etdiyiniz əməllərə görə Cənnətə daxil olun. Belə ki, məhz Allahın mərhəməti sayəsində Cənnətə daxil olmaq və əməllərimiz sayəsində onun mərtəbələrinə yerləşmək mümkündür. Odur ki, Allah, əməlisaleh möminlərə etdikləri əməllər sayəsində Cənnətə varis olacaqlarını bildirmişdir. Demək, Allahın Öz qullarına bəxş edəcəyi

[1] ən-Nəhl, 32.

mükafat Onun mərhəmətindən və lütfündən asılıdır. Uca Allah onları yoxdan yaratmaqla, sonra onlara ruzi verməklə, daha sonra da onlara bilmədiklərini öyrətməklə, artıq onlara lütf etmişdir.”[1]

[1] İbn Həcər əl-Əsqəlani, “Fəth əl-Bari”, 11/295

## ﴿ Bizi əfv et, bizi bağışla, bizə rəhm et! ﴾

Hədislərin birində Peyğəmbər ﷺ xəbər verir ki, mömin adam hər dəfə dua edib: **“Bizi əfv et, bizi bağışla, bizə rəhm et!”**[1]– deyəndə, uca Allah: “*İstəyini* yerinə yetirdim”– buyurur.[2]

Yaxşı, bəs bu möhtəşəm ayədə zikr edilən bu üç kəlmənin anlamı nədir?

Qurtubi رحمه الله demişdir: “Ayədə **“Bizi əfv et”**– deyildikdə, günahlarımızın əfv edilməsi qəsd edilir. Günahı əfv etmək; yəni günah sahibinin təqsirindən keçmək və buna görə onu cəzalandırmamaq.

**“Bizi bağışla”,** yəni günahlarımızı ört, heç kəsin bundan xəbəri olmasın.

**“Bizə rəhm et!”,** yəni bizə Öz tərəfindən mərhəmət bəxş etməklə lütf göstər.[3]

---

[1] əl-Bəqərə, 286.

[2] Səhih Muslim, 126.

[3] Təfsir əl-Qurtubi, 3/427.

Bəğəvi ﷀ demişdir: **“Bizi əfv et”,** yəni təqsirimizdən keç və günahlarımızı sil.

**“Bizi bağışla”,** yəni günahlarımızı ört və bizi rüsvay etmə.

**“Bizə rəhm et!”,** yəni biz yalnız Sənə itaət etməklə yaxşı işlər görür və yalnız Sənin rəhmətin sayəsində günah işləri tərk edirik.[1]

İbn Kəsir də ﷀ bu ayəni belə izah etmişdir: **“Bizi əfv et”,** yəni yalnız Sənin bildiyin təqsirlərimizdən keç və qəbahətlərimizi əfv et.

**“Bizi bağışla”,** yəni bizimlə bəndələrin arasında olan günahlarımızı ört, bizim günahlarımızı və qəbahətlərimizi üzə çıxartma.

**“Bizə rəhm et!”,** yəni gələcəkdə Öz lütfün sayəsində bizi günah işlər görməkdən qoru. Elə buna görə də, deyirlər ki: “Günah iş görmüş adam üç şeyə möhtacdır: “Allahın onun günahını əfv etməsinə, onun

---

[1] Təfsir əl-Bəğəvi, 1/354.

günahını örtüb, insanlar arasında onu rüsvay etməməsinə və bir də, onu yenidən günah iş görməkdən qorumasına."[1]

[1] Təfsir İbn Kəsir, 1/733.

# Allahdan bağışlanma diləməyin fəziləti

Allahdan bağışlanma diləmək, müsəlmanın həyatında olduqca böyük əhəmiyyət kəsb edən bir əməldir. Mömin bəndə davamlı olaraq Allahdan çoxlu-çoxlu bağışlanma diləməlidir. Belə ki, Allahdan bağışlanma diləmək, bu həyatda xeyir-bərəkət gətirir, şər və bəlaları dəf edir, insanın qüsur və nöqsanlarını aradan qaldırır, itaətini artırır və onun əzabdan xilas olmasına səbəb olur. Bu xüsusda, uca Allah belə buyurur: **“Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək. Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir.”**[1] İbn Abbas رضي الله عنهما belə izah etmişdir: “Əmin-amanlığa səbəb olan iki amildən biri getmiş, digəri isə qalmışdır.” Peyğəmbər ﷺ dünyadan köçmüş, lakin Allahdan bağışlanma dilə-

---

[1] əl-Ənfal, 33.

mək qalmışdır. Allahdan bağışlanma diləmək, əzabdan qurtulmaq üçün səbəbdir: "**Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir.**" Allahdan bağışlanma diləmək insanı əzabdan xilas edər: **"Kim pis bir iş görər və ya özü özünə zülm edər, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın bağışlayan, rəhmli olduğunu görər."**[1]

Qüdsi hədisdə də uca Allah belə buyurur: **"Ey Adəm övladı! Nə qədər ki, Mənə dua edirsən və Mənim** ***mərhəmətimə*** **ümid bağlayırsan, Mən sənin günahlarının hamısını bağışlayır,** ***günahın çoxluğuna və böyüklüyünə*** **əhəmiyyət vermirəm. Ey Adəm övladı! Əgər sənin günahların** ***yerdən*** **göyədək olsa, sonra da Məndən bağışlanma diləsən, Mən səni bağışlayar,** ***günahın çoxluğuna və böyüklüyünə*** **əhəmiyyət vermərəm. Ey Adəm övladı! Əgər sən yer dolusu günahla Mənə tərəf gəlsən**

[1] ən-Nisa, 110.

**və heç bir şeyi Mənə şərik qoşmadan, Mənim hüzuruma çıxsan, Mən sənə yer dolusu məğfirət əta edərəm."**[1]

Rəsulullah ﷺ demişdir: **"Bir zaman İblis öz Rəbbinə: "Sənin izzətinə və cəlalına and olsun ki, Adəm övladının ruhu bədənində olduğu müddətcə mən onları haqq yolundan sapdıracağam!"– demiş, Rəbbi də ona belə cavab vermişdi: "İzzətimə və cəlalıma and olsun ki, onlar Məndən bağışlanma dilədikcə, Mən onları bağışlayacağam!"**[2]

Peyğəmbər ﷺ demişdir: **"Əməl dəftərinə çoxlu istiğfar yazılmış kimsənin xoş halına![3]"**[1]

---

[1] Sunən ət-Tirmizi, 2/270; Silsilə əl-Əhadis əs-Səhihə, 127.

[2] Musnəd İmam Əhməd, 3/41; Səhih əl-Cami, 1650.

[3] Hədisdə keçən "xoş halına" ifadəsi Qurandakı ayəyə bənzəyir. Ayədə Uca Allah buyurur: **"İman gətirib saleh əməllər edənlər üçün xoş güzəran və gözəl qayıdış yeri hazırlanmışdır"** (ər-Rəd, 29). Təf-

Allaha tövbə etməyin və Ondan bağışlanma diləməyin fəzilətinə dair Quran və sünnədə olduqca çox ayələr və hədislər mövcuddur. Allaha tövbə etmək və Ondan bağışlanma diləmək Qiyamət günü insanın nicat tapmasına səbəb olan əməllərdəndir. Bu xüsusda möhtərəm səhabə Əli ibn Əbu Talib رضي الله عنه belə demişdir: "Mən təəccüb edi-

---

sirçilər bu ayəni belə izah etmişlər: İbn Abbas رضي الله عنهما demişdir: "Bu, sevinc və gözaydınlığıdır." İkrimə رحمه الله demişdir: "Onlara bəxş edilmiş nemətlər necə də gözəldir!" Dəhhak رحمه الله demişdir: "Onlar qibtə olunası insanlardır." Qətadə رحمه الله demişdir: "Xoş onların gözəl aqibətinə!" O, həmçinin demişdir: "Onlar xeyirə nail olmuşlar." İbrahim رحمه الله demişdir: "Onlara xeyir və kəramət nəsib olmuşdur." İbn Aclan رحمه الله demişdir: "*Ayədə "tubə" deyildikdə* – davamiyyətli xeyir *nəzərdə tutulur*." Bəzi təfsirçilər də *ayədə keçən "tubə" kəlməsinin*: "Cənnət" və ya "Cənnətdəki ağac" olduğunu söyləmişlər. Qeyd etmək lazımdır ki, hədisdə keçən "tubə" sözü, bu mənalardan hər birini ifadə edə bilər. Daha doğrusunu isə Allah bilir.

[1] Əməlul-Yovm vəl-Leylə, ən-Nəsai, 455; Səhih ət-Tərğib vət-Tərhib, 1618.

rəm o kimsəyə ki, əlində nicat tapmağa imkan olduğu halda, həlak olur." Ondan: "Nədir o imkan?"– deyə soruşdular. O dedi: "Allahdan bağışlanma diləmək."[1]

Elə isə, ey müsəlman, gecə-gündüz Allahdan bağışlanma dilə ki, Allah sənin keçmiş və gələcək günahlarını bağışlasın, üstəlik, Qiyamət günü əməl dəftərində çoxlu istiğfar yazılmış olduğunu görəsən.

---

[1] Bu rəvayəti əd-Dinuri "əl-Mucaləsətu və Cəvahirul-Elm" kitabında (4/49) nəql etmişdir.

# Rəsulullahın ﷺ həyatından nümunələr

Ey müsəlman, bil ki, dinə aid hər bir əməldə Rəsulullah ﷺ bizim üçün nümunədir. Bu xüsusda, uca Allah belə buyurur: **"Allahın Rəsulu sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə – gözəl nümunədir."**[1] Yəni müsəlmanlara Peyğəmbərin ﷺ yolunu tutub getmək vacibdir. Peyğəmbərin ﷺ həyat yoluna baxsan, onun Allahdan olduqca çox bağışlanma dilədiyini görə bilərsən. Bu xüsusda Əbu Hureyra رضي الله عنه demişdir: "Mən Rəsulullahdan ﷺ daha çox: "Allahdan bağışlanma diləyirəm və Ona tövbə edirəm!"– deyən bir kimsə görməmişəm."[2] Halbuki, uca Allah Peyğəmbərin ﷺ keçmiş və gələcək günahlarını bağışlamışdır. **"Allah sənin əvvəlki və gə-**

[1] əl-Əhzab, 21.

[2] Aməlul-Yovm vəl-Leylə, ən-Nəsai, 454; Səhih İbn Hibban, 928.

**ləcək günahlarını bağışlasın."**[1] Buna baxmayaraq Peyğəmbər ﷺ daim Allahdan bağışlanma diləyər və belə buyurardı: **"Ey insanlar! Allaha tövbə edin və Ondan bağışlanma diləyin! Belə ki, mən hər gün yüz dəfə Ona tövbə edir və Ondan bağışlanma diləyirəm."**[2]

Peyğəmbərin ﷺ Rəbbindən bağışlanma dilədiyi vaxtlardan bəziləri bunlardır:

**– Yuxudan oyandıqda:**

– Peyğəmbər ﷺ demişdir: "Kim gecə yuxudan oyandıqda:

((لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، سُبْحَانَ اللهِ، وَالْحَمْدُ للهِ، وَلاَ إِلَهَ إِلاَّ اللهُ، وَاللهُ أَكْبَرُ، وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ الْعَلِيِّ الْعَظِيمِ، رَبِّ اغْفِرْ لِي))

---

[1] əl-Fəth, 2.

[2] Musnəd İmam Əhməd, 2/260-261; Silsilə əl-Əhadis əs-Səhihə, 1452.

Lə iləhə illəllahu vəhdəhu lə şərikə ləh, ləhul-mulku va ləhul-həmdu və huvə alə kulli şeyin qadir, subhanallahi, vəlhəmdulilləhi və lə iləhə illəllahu, vəllahu əkbər, və lə hovlə və lə quvvətə illə billəhil-aliyyil-azim, rabbiğfir li.

Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O, hər şeyə Qadirdir. Allah pak və müqəddəsdir. Həmd Allahadır. Allahdan başqa məbud yoxdur. Allah ən Böyükdür. Qüdrət və güc yalnız Uca və Böyük Allahdadır! Ey Rəbbim məni bağışla!"– desə, bağışlanar, dua etsə, ona cavab verilər. Qalxıb dəstəmaz alsa, sonra namaz qılsa, namazı qəbul olunar."[1]

– İbn Abbas رضي الله عنهما rəvayət edir ki, bir gecə Peyğəmbər ﷺ yuxudan oyandı və gözlərini ovxalayıb, yuxusunu dağıtdı. Sonra "Ali-İmran" surəsinin son on ayəsini oxudu:[2]

---

[1] Səhih əl-Buxari, 1154.

[2] Səhih əl-Buxari, 183.

۞ إِنَّ فِى خَلْقِ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ وَٱخْتِلَٰفِ ٱلَّيْلِ وَٱلنَّهَارِ
لَءَايَٰتٍ لِّأُو۟لِى ٱلْأَلْبَٰبِ ﴿١٩٠﴾ ٱلَّذِينَ يَذْكُرُونَ ٱللَّهَ قِيَٰمًا وَقُعُودًا
وَعَلَىٰ جُنُوبِهِمْ وَيَتَفَكَّرُونَ فِى خَلْقِ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ رَبَّنَا مَا
خَلَقْتَ هَٰذَا بَٰطِلًا سُبْحَٰنَكَ فَقِنَا عَذَابَ ٱلنَّارِ ﴿١٩١﴾ رَبَّنَآ إِنَّكَ مَن
تُدْخِلِ ٱلنَّارَ فَقَدْ أَخْزَيْتَهُۥ ۖ وَمَا لِلظَّٰلِمِينَ مِنْ أَنصَارٍ ﴿١٩٢﴾ رَّبَّنَآ إِنَّنَا
سَمِعْنَا مُنَادِيًا يُنَادِى لِلْإِيمَٰنِ أَنْ ءَامِنُوا۟ بِرَبِّكُمْ فَـَٔامَنَّا ۚ رَبَّنَا
فَٱغْفِرْ لَنَا ذُنُوبَنَا وَكَفِّرْ عَنَّا سَيِّـَٔاتِنَا وَتَوَفَّنَا مَعَ ٱلْأَبْرَارِ ﴿١٩٣﴾
رَبَّنَا وَءَاتِنَا مَا وَعَدتَّنَا عَلَىٰ رُسُلِكَ وَلَا تُخْزِنَا يَوْمَ ٱلْقِيَٰمَةِ ۗ إِنَّكَ لَا
تُخْلِفُ ٱلْمِيعَادَ ﴿١٩٤﴾ فَٱسْتَجَابَ لَهُمْ رَبُّهُمْ أَنِّى لَآ أُضِيعُ عَمَلَ
عَٰمِلٍ مِّنكُم مِّن ذَكَرٍ أَوْ أُنثَىٰ ۖ بَعْضُكُم مِّنۢ بَعْضٍ ۖ فَٱلَّذِينَ هَاجَرُوا۟
وَأُخْرِجُوا۟ مِن دِيَٰرِهِمْ وَأُوذُوا۟ فِى سَبِيلِى وَقَٰتَلُوا۟ وَقُتِلُوا۟ لَأُكَفِّرَنَّ
عَنْهُمْ سَيِّـَٔاتِهِمْ وَلَأُدْخِلَنَّهُمْ جَنَّٰتٍ تَجْرِى مِن تَحْتِهَا ٱلْأَنْهَٰرُ
ثَوَابًا مِّنْ عِندِ ٱللَّهِ ۗ وَٱللَّهُ عِندَهُۥ حُسْنُ ٱلثَّوَابِ ﴿١٩٥﴾ لَا يَغُرَّنَّكَ تَقَلُّبُ

ٱلَّذِينَ كَفَرُواْ فِي ٱلۡبِلَٰدِ ﴿١٩٦﴾ مَتَٰعٞ قَلِيلٞ ثُمَّ مَأۡوَىٰهُمۡ جَهَنَّمُۚ
وَبِئۡسَ ٱلۡمِهَادُ ﴿١٩٧﴾ لَٰكِنِ ٱلَّذِينَ ٱتَّقَوۡاْ رَبَّهُمۡ لَهُمۡ جَنَّٰتٞ تَجۡرِي مِن
تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ خَٰلِدِينَ فِيهَا نُزُلٗا مِّنۡ عِندِ ٱللَّهِۗ وَمَا عِندَ ٱللَّهِ خَيۡرٞ
لِّلۡأَبۡرَارِ ﴿١٩٨﴾ وَإِنَّ مِنۡ أَهۡلِ ٱلۡكِتَٰبِ لَمَن يُؤۡمِنُ بِٱللَّهِ وَمَآ
أُنزِلَ إِلَيۡكُمۡ وَمَآ أُنزِلَ إِلَيۡهِمۡ خَٰشِعِينَ لِلَّهِ لَا يَشۡتَرُونَ بِـَٔايَٰتِ
ٱللَّهِ ثَمَنٗا قَلِيلًاۗ أُوْلَٰٓئِكَ لَهُمۡ أَجۡرُهُمۡ عِندَ رَبِّهِمۡۗ إِنَّ
ٱللَّهَ سَرِيعُ ٱلۡحِسَابِ ﴿١٩٩﴾ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱصۡبِرُواْ
وَصَابِرُواْ وَرَابِطُواْ وَٱتَّقُواْ ٱللَّهَ لَعَلَّكُمۡ تُفۡلِحُونَ ﴿٢٠٠﴾

**“Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür *və deyirlər*: “Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən. Bizi od əzabından**

**qoru! Ey Rəbbimiz! Sən oda daxil etdiyin kəsi əlbəttə, rüsvay edərsən. Zalımların köməkçiləri olmaz. Ey Rəbbimiz! Həqiqətən, biz: "Rəbbinizə iman gətirin!"– deyə imana çağıran kimsənin çağırışını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı itaətkarlarla bir yerdə al! Ey Rəbbimiz! Öz elçilərinin vasitəsi ilə bizə vəd etdiklərini ver və qiyamət günü bizi rüsvay etmə! Şübhəsiz ki, Sən vədə xilaf çıxmırsan!" Onların Rəbbi onlara cavab verdi: "Mən, sizlərdən – istər kişi, istərsə də qadın olsun – heç bir iş görənin əməyini puç etmərəm. Siz bir-birinizdənsiniz (dində kişi və qadın eynidir). Hicrət edənlərin, öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin əlbəttə təqsirlərindən keçəcək və onları *ağacları* altından çaylar axan cənnətlərə daxil edəcəyəm. *Bu, onlar üçün***

**Allahdan bir mükafatdır. Gözəl mükafat yalnız Allah yanındadır". Qoy kafirlərin diyarbədiyar gəzib-dolaşması səni aldatmasın! Bu, keçici bir zövqdür. Sonra isə onların məskəni Cəhənnəmdir. Ora nə pis yataqdır! Lakin öz Rəbbindən qorxanlar üçün *ağacları* altından çaylar axan cənnətlər vardır ki, onlar orada əbədi qalacaqlar. *Bu, onlar üçün* Allahdan bir ziyafətdir. Allah yanında olan *nemətlər* itaətkarlar üçün daha xeyirlidir. Həqiqətən, Kitab əhlindən eləl追 də vardır ki, Allaha müti olaraq həm Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə inanır, Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir. Ey iman gətirənlər! Səbir edin, dözümlü olun, (sərhəd boyu) növbə ilə keşik çəkin və Allahdan qorxun ki, bəlkə, nicat tapasınız!"[1]**

---

[1] Ali-İmran, 190-200.

**– Ayaqyolundan çıxdıqda:**

Aişə ﵂ rəvayət edir ki, Rəsulullah ﷺ ayaqyolundan çıxdıqda deyərdi:

((غُفْرَانَكَ))

“Ğufranəkə”

“*Allahım,* məni bağışla!”[1]

**– Dəstəmaz aldıqdan sonra:**

Rəsulullah ﷺ demişdir: “Kim dəstəmaz aldıqdan sonra:

(( سُبْحَانَكَ اللهُمَّ، وَبِحَمْدِكَ أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا أَنْتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ ))

“Subhanəkəllahummə və bihəmdik, əşhədu ən ləə iləəhə illə ənt, əstəğfirukə və ətuubu ileyk!”

“Allahım, Sən pak və müqəddəssən! Həmd Sənə məxsusdur! Mən şahidlik edirəm ki, Səndən başqa *haqq* məbud yoxdur. Mən Səndən bağışlanma diləyir və Sənə

[1] Sunən Əbu Davud, 30; Səhih Əbu Davud, 22.

tövbə edirəm!”– desə, bu, nazik dəriyə yazılar, sonra üzərinə möhür vurular və bu möhür Qiyamət gününədək sındırılmaz.”[1]

**– Rükuda və səcdədə:**

Aişə ﵂ rəvayət edir ki, Rəsulullah ﷺ rükuda və səcdədə bu duanı çox edərdi:

((سُبْحَانَكَ اللهُمَّ رَبَّنَا، وَبِحَمْدِكَ اللهُمَّ اغْفِرْ لِي))

“Subhanəkəllahummə Rabbənə və bihəmdikə, Allahummə-ğfirli.”

“Allahım! Sən pak və müqəddəssən. Ey Rəbbimiz! Sənə həmd olsun. Allahım, məni bağışla!”[2]

**– İki səcdə arasında:**

Huzeyfə ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ iki səcdə arasında deyərdi:

((رَبِّ اغْفِرْ لِي، رَبِّ اغْفِرْ لِي))

“Rabbi-ğfir li, Rabbi-ğfir li.”

---

[1] “Mustədrək əl-Hakim”, 1/564; Silsilə əl-Əhadis əs-Səhihə, 2333.

[2] Səhih əl-Buxari, 4968; Səhih Muslim, 484.

“Ey Rəbbim, məni bağışla! Ey Rəbbim məni bağışla!”[1]

İbn Abbas ﷛ rəvayət edir ki, Rəsulullah ﷺ gecə namazında iki səcdə arasında deyərdi:

((اللَّهُمَّ اغْفِرْ لِي، وَارْحَمْنِي، وَاهْدِنِي، وَاجْبُرْنِي، وَعَافِنِي، وَارْزُقْنِي، وَارْفَعْنِي))

“Allahummə-ğfir li, vərhəmni, vəhdini, vəcburni, və afini, vərzuqni, vərfə'ni.”

“Allahım, məni bağışla, mənə rəhm et, məni doğru yola yönəlt, mənə lütf et, mənə salamatlıq ver, mənə ruzi yetir və məni ucalt!”[2]

**– Namazda salam verməmişdən əvvəl:**

Rəvayət edilir ki, Əbu Bəkr əs-Siddiq ﷛ Rəsulullaha ﷺ: “Mənə elə bir dua öy-

[1] Sunən İbn Macə, 897; “səhih”, bax: İrva əl-Ğəlil, 335.

[2] Sunən ət-Tirmizi, 284; Sunən İbn Macə, 898; Səhih İbn Macə, 1/148.

rət ki, namazda onunla Allaha dua edim"– demiş, Peyğəmbər ﷺ də belə buyurmuşdur: "De:

((اللَّهُمَّ إِنِّي ظَلَمْتُ نَفْسِي ظُلْمًا كَثِيرًا، وَلاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ، فَاغْفِرْ لِي مَغْفِرَةً مِنْ عِنْدِكَ وَارْحَمْنِي، إِنَّكَ أَنْتَ الْغَفُورُ الرَّحِيمُ))

"Allahummə inni zaləmtu nəfsi zulmən kəsiran, və lə yəğfiruz-zunubə illə ənt, fəğfir li məğfirətən min indik, vərhəmni, innəkə əntəl-ğafuurur-rəhim"

"Allahım, Mən özümə çoxlu zülm etmişəm. Günahları yalnız Sən bağışlayırsan. Özün günahımdan keçməklə məni bağışla və mənə rəhm et. Həqiqətən, Sən Bağışlayansan, Rəhmlisən!"[1]

– Əli ibn Əbu Talib رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ namazda salamdan əvvəl belə dua edərdi:

[1] Səhih əl-Buxari, 834; Səhih Muslim, 2705.

((اللَّهُمَّ اغْفِرْ لِي مَا قَدَّمْتُ، وَمَا أَخَّرْتُ، وَمَا أَسْرَرْتُ، وَمَا أَعْلَنْتُ، وَمَا أَسْرَفْتُ، وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنِّي. أَنْتَ الْمُقَدِّمُ ، وَأَنْتَ الْمُؤَخِّرُ، لاَ إِلَهَ إِلاَّ أَنْتَ))

"Allahummə-ğfir li mə qaddəmtu, va mə əxxartu, va mə əsrartu, va mə ə'ləntu, va mə əsraftu, va mə əntə ə'ləmu bihi minni. Əntəl-muqaddimu, va əntəl-muəxxiru, lə iləhə illə ənt."

"Allahım, əvvəl etdiyim və sonra edəcəyim, gizlin saxladığım və üzə çıxardığım, xəta etdiyim və məndən daha yaxşı bildiyin *pis* əməllərimi bağışla! Əvvələ çəkən də Sənsən, təxirə salan da Sənsən. Səndən başqa məbud yoxdur."[1]

– Mihcən ibn əl-Ədra ﵁ rəvayət edir ki, bir dəfə Peyğəmbər ﷺ məscidə daxil oldu və bir nəfər namazın axırında təşəhhüddə belə dua etdiyini eşitdi:

[1] Səhih Muslim, 771.

((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ يَا اللهُ بِأَنَّكَ الْوَاحِدُ الْأَحَدُ الصَّمَدُ الَّذِي لَمْ يَلِدْ وَلَمْ يُولَدْ وَلَمْ يَكُنْ لَهُ كُفُوًا أَحَدٌ، أَنْ تَغْفِرَ لِي ذُنُوبِي، إِنَّكَ أَنْتَ الْغَفُورُ الرَّحِيمُ))

"Allahummə inni əs'əlukə, ya Allah, bi ənnəkəl-Vahidul-Əhədus-Saməd əlləzi ləm yəlid və ləm yuuləd va ləm yəkun ləhu kufuvən əhəd, ən təğfira li zunuubi, innəkə əntəl-ğafuurur-rahim"

"Allahım, Sənə yalvarıram! Ey Allah, Sən Təksən, *heç kəsə və heç nəyə* Möhtac deyilsən, doğmayan, doğulmayan və heç bir tayı-bərabəri olmayansan. Günahlarımı mənə bağışla! Şübhəsiz ki, Sən Bağışlayansan, Rəhmlisən."[1]

**– Namazı bitirdikdən sonra:**

Rəvayət edilir ki, Sovban ﵁ demişdir: "Rəsulullah ﷺ namazı bitirdikdən sonra

[1] Sunən Əbu Davud, 1493; Sunən ən-Nəsai, 7619; Musnəd imam Əhməd, 4/338; Səhih Əbu Davud, 985.

üç dəfə Allahdan bağışlanma diləyər, ardından da (bir dəfə):

((اللَّهُمَّ، أَنْتَ السَّلاَمُ وَمِنْكَ السَّلاَمُ، تَبَارَكْتَ يَا ذَا الْجَلاَلِ وَالإِكْرَامِ))

“Allahummə əntəs-səlam və minkəs-səlam təbarəktə ya zəl-cəlali vəl-ikram”

“Allahım! Salam Sənsən və əmin-amanlıq Səndəndir. Ey əzəmət və ehtiram sahibi! Sən xeyirxahsan.”

Vəlid ﷺ dedi: “Mən Əvzaidən ﷺ soruşdum: “Bağışlanmanı necə diləmək lazımdır?” O dedi: “Əstəğfirullah, əstəğfirullah, əstəğfirullah”– deyirsən.[1]

**– Səhər və axşam zikrlərini etdikdə:**

Şəddad ibn Ovs رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “İstiğfarların[2] ən möhtəşəmi budur:

[1] Səhih Muslim, 591.

[2] İstiğfar: Allahdan bağışlanma diləmək.

((اللَّهُمَّ أَنْتَ رَبِّي لاَ إِلَهَ إِلاَّ أَنْتَ خَلَقْتَنِي وَأَنَا عَبْدُكَ، وَأَنَا عَلَى عَهْدِكَ وَوَعْدِكَ مَا اسْتَطَعْتُ، أَعُوذُ بِكَ مِنْ شَرِّ مَا صَنَعْتُ، أَبُوءُ لَكَ بِنِعْمَتِكَ عَلَيَّ، وَأَبُوءُ بِذَنْبِي، فَاغْفِرْ لِي فَإِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ))

"Allahummə əntə rabbi, lə iləhə illə ənt, xaləqtəni və ənə abduk, və ənə alə ahdikə və və'dikə məs'təta'tu, əuzu bikə min şərri mə sanə'tu; əbu'u ləkə bini'mətikə aleyyə, və əbu'u bizənbi. Fəğfir li fəinnəhu lə yəğfiruz-zunubə illə ənt"

"Allahım! Sən mənim Rəbbimsən. Səndən başqa *ibadətə layiq* məbud yoxdur. Məni Sən yaratdın və mən Sənin qulunam. Gücüm çatan qədər Sənə verdiyim əhdə və vədə sadiqəm. Etdiklərimin şərindən Sənə sığınıram. Mənə verdiyin neməti etiraf edirəm və günahımı boynuma alıram. Məni bağışla! Şübhəsiz ki, günahları yalnız Sən bağışlayırsan!" Sonra Rəsulullah ﷺ dedi: "Kim səhər bu zikri, ona yəqinliklə inana-

raq desə və həmin gün günbatana qədər vəfat etsə, cənnətlik olar. Kim də axşam bu zikri, ona yəqinliklə inanaraq desə və gün çıxanadək vəfat etsə, cənnətlik olar."[1]

**– Duha namazından sonra:**

Aişə ﵂ demişdir: "Rəsulullah ﷺ duha namazını qıldıqdan sonra yüz dəfə:

((اللَّهُمَّ اغْفِرْ لِي، وَتُبْ عَلَيَّ، إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ))

"Allahumməğ-firli, və tub aleyyə, innəkə əntət-Təvvabur-Rəhim!"

"Allahım, məni bağışla və tövbəmi qəbul et. Həqiqətən, Sən Tövbələri qəbul edənsən, Rəhmlisən!"[2]

**– Məclislərdə:**

İbn Ömər ﵄ demişdir: "Biz Peyğəmbərin ﷺ məclisində olanda, onun yüz dəfə:

---

[1] Səhih əl-Buxari, 6306.

[2] Musnəd İmam Əhməd, 2/21; Səhih əl-Ədəbul-Mufrad, 619.

((رَبِّ اغْفِرْ لِي، وَتُبْ عَلَيَّ، إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ))

"Rabbiğ-firli, və tub aleyyə, innəkə əntət-Təvvabur-Rəhim!"

"Ey Rəbbim, məni bağışla və tövbəmi qəbul et. Həqiqətən də, Sən tövbələri qəbul edənsən, Rəhmlisən!"– dediyini sayardıq."[1]

**– Xütbəyə başladıqda:**

((إِنْ الْحَمْدُ لِلَّهِ، نَحْمَدُهُ وَنَسْتَعِينُهُ وَنَسْتَغْفِرُهُ، وَنَعُوذُ بِاللَّهِ مِنْ شُرُورِ أَنْفُسِنَا وَمِنْ سَيِّئَاتِ أَعْمَالِنَا، مَنْ يَهْدِهِ اللَّهُ فَلَا مُضِلَّ لَهُ، وَمَنْ يُضْلِلْ فَلَا هَادِيَ لَهُ، وَأَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ...))

"İnnəl-həmdə lilləh, nəhməduhu və nəstəinuhu və nəstəğfiruh, və nəuzu bil-

[1] Sunən Əbu Davud, 1516; Silsilətul-Əhadisis-Səhihə, 556.

ləəhi min şururi ənfusinə və min seyyiəəti ə'məəlinə, mən yəhdihilləəhu fələ mudillə ləh, və mən yudlil fələ hadiyə ləh, və əşhədu ənlə ilahə illəllahə vəhdəhu lə şərikə ləh, və əşhədu ənnə Muhəmmədən abduhu və rəsuluh.

Həqiqətən, bütün həmdlər Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq və Ondan bağışlanma diləyirik. Nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona sığınırıq. Allah kimə hidayət verərsə, onu azdıran tapılmaz, kimi azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa *ibadətə haqqı olan* məbud yoxdur, O təkdir şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd ﷺ Onun qulu və rəsuludur.[1]

[1] Sunən Əbu Davud, 2118; Sunən ət-Tirmizi, 1131; Sunən əl-Kubra, ən-Nəsai, 10250; Sunən İbn Macə 1892; Mişkat əl-Məsabih, 3149.

**– Məclisin kəffarəsi[1]:**

Əbu Bərzə əl-Əsləmi ﷺ demişdir: Rəsulullah ﷺ məclisin sonunda qalxıb getmək istədikdə belə deyərdi:

((سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ، أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ أَنْتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ))

"Subhanəkəllahummə və bihəmdik, əşhədu ən ləə iləəhə illə ənt, əstəğfirukə və ətuubu ileyk!"

"Allahım, Sən pak və müqəddəssən! Sənə həmd olsun! Mən şahidlik edirəm ki, Səndən başqa məbud yoxdur. Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm!"[2]

**– Miniyə mindikdə:**

Əli ibn Rəbiə ﷺ demişdir: "*Bir dəfə* mən Əlinin ﷺ yanında ikən, ona bir minik

[1] Kəffarə: günahların bağışlanılması üçün şəriətin buyurduğu qaydada deyilən söz, yaxud verilən sədəqə.

[2] Sunən Əbu Davud, 4859; Səhih ət-Tərğib vət-Tərhib, 1517.

heyvanı gətirdilər. O, ayağını üzəngiyə qoyub: "Bismilləh!"– dedi *və heyvanın belinə qalxdı*. Miniyin üstündə qərar tutduqda: "Əlhəmdulilləh!"– dedi, sonra belə dua etdi:

((سُبْحَانَ الَّذِي سَخَّرَ لَنَا هَذَا وَمَا كُنَّا لَهُ مُقْرِنِينَ وَإِنَّا إِلَى رَبِّنَا لَمُنْقَلِبُونَ))

"Subhanəl-ləzi səxxara lənə həzə və mə kunnə ləhu muqrinin. Və innə ilə Rabbinə ləmunqalibun."[1] Sonra üç dəfə "Əlhəmdulilləh!" və üç dəfə "Allahu Əkbər!"– dedi. Sonra davam edib dedi:

((سُبْحَانَكَ إِنِّي ظَلَمْتُ نَفْسِي فَاغْفِرْ لِي، فَإِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ))

---

[1] **"Bunu bizə tabe edən Allah pak və müqəddəsdir. Yoxsa bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq!"** (əz-Zuxruf, 13-14).

"Subhanəkə inni zaləmtu nəfsi fəğfir li, fə innəhu lə yəğfiruz-zunubə illə ənt."[1]

Sonra o güldü. Mən dedim: "Niyə güldün, ey möminlərin əmiri?" O dedi: "Mən Rəsulullah ﷺ mənim kimi *minik heyvanına minib dua* etdiyini, sonra da güldüyünü gördüm və *ondan*: "Niyə güldün, ya Rəsulullah?"– deyə soruşdum. O da, belə cavab verdi: "Sənin Rəbbin Öz bəndəsinin: "Ey Rəbbim, günahlarımı bağışla"– deməsinə, (Özünə layiq tərzdə) təəccüb edir. Bəndəsi də bilir ki, Rəbbindən başqa heç kəs bu günahları bağışlaya bilməz."[2]

**– Yatmazdan əvvəl:**

– Rəsulullah ﷺ demişdir: "Sizdən biriniz yatağına uzanmaq istədikdə, qoy, izarının iç tərəfi ilə yatağını çırpsın. Çünki o,

---

[1] Sən pak və müqəddəssən! Mən özümə zülm etdim. Məni bağışla! Şübhəsiz ki, günahları ancaq Sən bağışlayırsan!

[2] Sunən Əbu Davud, 2602; Sunən ət-Tirmizi, 3443; Musnəd İmam Əhməd, 1/98; Muxtəsər əş-Şəmail, 233.

özündən sonra yatağına nəyin girdiyini bilmir. Sonra da yatağına uzanıb desin:

((بِاسْمِكَ رَبِّ وَضَعْتُ جَنْبِي وَبِكَ أَرْفَعُهُ إِنْ أَمْسَكْتَ نَفْسِي فَارْحَمْهَا وَإِنْ أَرْسَلْتَهَا فَاحْفَظْهَا بِمَا تَحْفَظُ بِهِ عِبَادَكَ الصَّالِحِينَ))

Bismikə rabbi vəda'tu cənbi və bikə ərfəuh. Fəin əmsəktə nəfsi fərhəmhə, və in ərsəltəhə fəhfəzhə bimə təhfəzu bihi ibadəkəs-salihin!

Ey Rəbbim, Sənin adınla böyrümü yerə qoydum, Sənin sayəndə də onu qaldırıram. Ruhumu tutub saxlasan, ona rəhm et, onu buraxsan, əməlisaleh qullarını qoruduğun kimi onu da qoru!"[1]

– Abdullah ibn əl-Haris رحمه الله demişdir: "*Bir gün* Abdullah ibn Ömər رضي الله عنهما bir kişiyə buyurdu ki, yatağına uzandığı zaman belə desin:

---

[1] "Səhih əl-Buxari", 6320.

(( اللَّهُمَّ إِنَّكَ خَلَقْتَ نَفْسِى وَأَنْتَ تَوَفَّاهَا لَكَ مَمَاتُهَا وَمَحْيَاهَا إِنْ أَحْيَيْتَهَا فَاحْفَظْهَا وَإِنْ أَمَتَّهَا فَاغْفِرْ لَهَا اللَّهُمَّ إِنِّى أَسْأَلُكَ الْعَافِيَةَ ))

Allahummə, innəkə xaləqtə nəfsi, və əntə təvaffahə, ləkə məmatuhə və məhyahə, in əhyəytəhə fəhfəzhə, və in əməttəhə fəğfir ləhə. Allahummə, inni əs'əlukəl-afiyəh!"

Allahım, canımı Sən yaratdın, Sən də onu alacaqsan. Onu öldürmək də, diriltmək də Sənə məxsusdur. Onu diriltsən, qoru, öldürsən, bağışla! Allahım, Səndən salamatlıq diləyirəm!

Adam dedi: "Sən bunu Ömərdən eşitmisən?" İbn Ömər ﺭﺿﻲ ﺍﻟﻠﻪ ﻋﻨﻬﻤﺎ dedi: "Ömərdən də xeyirli olandan, Peyğəmbərdən ﷺ eşitmişəm."[1]

– Rəvayət edilir ki, Rəsulullah ﷺ gecə yatağına girərkən deyərdi:

[1] Səhih Muslim, 2712.

(( بِسْمِ اللهِ وَضَعْتُ جَنْبِي اللَّهُمَّ اغْفِرْ لِي ذَنْبِي، وَأَخْسِئْ شَيْطَانِي، وَفُكَّ رِهَانِي، وَاجْعَلْنِي فِي النَّدِيِّ الأَعْلَى ))

Bismilləhi vəda'tu cənbi. Allahumməğfirli zənbi, və əxsi' şeytani, və fukkə rihani, vəc'alni fin-nədiyyil-ə'la!

Allahın adı ilə böyrümü yerə qoydum. Allahım, mənim günahımı bağışla, şeytanımın rədd olub getməsində və borcumu ödəməkdə mənə yardım et, və məni uca dostların cərgəsinə daxil et!”[1]

– Rəsulullah ﷺ demişdir: “Hər kim gecə “əl-Bəqərə” surəsinin son iki ayəsini oxuyarsa, bu ona kifayət edər.[2]”[3]

---

[1] Sunən Əbu Davud, 5054; Mişkatul-Məsabih, 2409.

[2] Bu iki ayə gecə namazına yatıb qalan adam üçün onu əvəz edər, yaxud bu ayələr insanı şeytandan və başqa bu kimi xəbislərin şərindən qoruyar (Şərh ən-Nəvəvi).

[3] Səhih əl-Buxari, 5009; Səhih Muslim, 807.

﴿ءَامَنَ ٱلرَّسُولُ بِمَآ أُنزِلَ إِلَيۡهِ مِن رَّبِّهِۦ وَٱلۡمُؤۡمِنُونَۚ كُلٌّ ءَامَنَ
بِٱللَّهِ وَمَلَٰٓئِكَتِهِۦ وَكُتُبِهِۦ وَرُسُلِهِۦ لَا نُفَرِّقُ بَيۡنَ أَحَدٖ مِّن رُّسُلِهِۦۚ
وَقَالُواْ سَمِعۡنَا وَأَطَعۡنَاۖ غُفۡرَانَكَ رَبَّنَا وَإِلَيۡكَ ٱلۡمَصِيرُ ٢٨٥ لَا
يُكَلِّفُ ٱللَّهُ نَفۡسًا إِلَّا وُسۡعَهَاۚ لَهَا مَا كَسَبَتۡ وَعَلَيۡهَا مَا
ٱكۡتَسَبَتۡۗ رَبَّنَا لَا تُؤَاخِذۡنَآ إِن نَّسِينَآ أَوۡ أَخۡطَأۡنَاۚ رَبَّنَا وَلَا
تَحۡمِلۡ عَلَيۡنَآ إِصۡرٗا كَمَا حَمَلۡتَهُۥ عَلَى ٱلَّذِينَ مِن قَبۡلِنَاۚ رَبَّنَا
وَلَا تُحَمِّلۡنَا مَا لَا طَاقَةَ لَنَا بِهِۦۖ وَٱعۡفُ عَنَّا وَٱغۡفِرۡ لَنَا وَٱرۡحَمۡنَآۚ
أَنتَ مَوۡلَىٰنَا فَٱنصُرۡنَا عَلَى ٱلۡقَوۡمِ ٱلۡكَٰفِرِينَ ٢٨٦﴾

**“*Allahın* rəsulu öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də, *iman gətirdilər*. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər. *Onlar dedilər*: “Biz Onun elçiləri arasında fərq qoymuruq!” *Həmçinin,* dedilər: “Eşitdik və itaət etdik! Ey Rəbbimiz, Səndən bağışlanma diləyirik, dönüş də, yalnız Sənədir!” Allah hər kəsi**

**yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı *xeyir yalnız* onun özünə, qazandığı *şər də, yalnız* öz əleyhinədir. "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yüklə yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə daşıtdırma! Bizi əfv et, bizi bağışla, bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafir qövmə *qalib gəlməkdə* bizə yardım et!"[1]**

**– Ömrünün sonunda istiğfarı artırması:**

Rəsulullah ﷺ ömrü boyu Rəbbindən bağışlanma diləmiş və nəhayət, ömrünün sonunda istiğfarı daha da artırmışdır. Rəvayət edilir ki, Aişə رضي الله عنها demişdir:[2] "Rəsulullah ﷺ *ömrünün sonunda* bu duanı çox edərdi:

((سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ، أَسْتَغْفِرُ اللهَ وَأَتُوبُ إِلَيْهِ))

[1] ən-Bəqərə, 285-286

[2] "Səhih Muslim", 2/50.

"Subhanəllahi və bihəmdih, əstəğfirullahə və ətubu ileyh."

Allah pak və müqəddəsdir. Allaha həmd olsun. Allahdan bağışlanma diləyir və Ona tövbə edirəm!

Aişə ﷺ dedi: "Mən soruşdum: "Ya Rəsulullah, "Subhanəllahi və bihamdih, əstəğfirullahə və ətubu ileyh!" kəlmələrini təkrar-təkrar söyləməyinin səbəbi nədir? O dedi: "Rəbbim mənə ümmətimə dair bir əlamət görəcəyimi və o əlaməti gördüyüm zaman təkrar-təkrar: "Subhanəllahi və bihəmdih, əstəğfirullahə və ətubu ileyh" söyləyəcəyimi xəbər vermişdi. Artıq, o əlaməti gördüm. *Budur, o əlamət*: **"Allahın köməyi və qələbə gəldiyi zaman"** – yəni Məkkə fəth edildiyi zaman – **"insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!"**[1]

---

[1] ən-Nəsr, surəsi.

Beləcə, Rəsulullah ﷺ öz əcəli yetişənədək Allahdan bağışlanma diləməyinə davam etmiş, hətta, son nəfəsində belə, Rəbbi onu Allahdan bağışlanma diləməyə müvəffəq etmişdir. Aişə رضي الله عنها demişdir: “Peyğəmbər ﷺ mənim evimdə və başı mənim sinəmin üstündə ikən vəfat etdi. O, əllərini suyun içinə salır, sonra *yaş əllərini* üzünə sürtüb deyirdi: “Lə ilahə illəllah! Həqiqətən də, ölümün bihuşluğu vardır.” Son nəfəsində o, əllərini qaldırıb:

(( اللَّهُمَّ اغْفِرْ لِي وَارْحَمْنِي وَأَلْحِقْنِي بِالرَّفِيقِ الأَعْلَى ))

“Allahumməğ-firli, vər-həmni və əlhiqni bir-rəfiqil-ə'la!”[1]– deməyə başladı. Nəhayət, ruhu bədənindən çıxdı və əlləri yanına düşdü.”[2]

---

[1] Tərcüməsi: Allahım, məni bağışla, mənə rəhm et və məni uca dostlara qovuşdur!

[2] Səhih əl-Buxari, 5674; Səhih Muslim, 2444.

# Allahdan bağışlanma diləmək Peyğəmbərlərin عليهم السلام sünnəsidir

Ey müsəlman, bil ki, peyğəmbərlər عليهم السلام və onların yolunu gedən müttəqilər həm gizlində, həm də aşkarda daim Allahdan bağışlanma diləmişlər. Bu xüsusda, Quranda belə buyurulur: **"Şübhəsiz ki, müttəqilər cənnətlərdə bulaqlar başında olacaqlar və öz Rəbbinin onlara verdiyini alacaqlar. Həqiqətən, onlar bundan əvvəl yaxşı iş görən adamlar olmuşdular. Onlar gecələr *ibadət edib,* az yatırdılar. Sübh çağı isə bağışlanma diləyirdilər."**[1]

– Adəm peyğəmbər عليه السلام və onun həyat yoldaşı Həvva عليهما السلام Allahdan bağışlanma diləyib demişlər: **"Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan və bizə rəhm etməsən, əlbəttə, ziyana uğrayanlardan olarıq"**[2]

---

[1] əz-Zariyat, 15-18.

[2] əl-Əraf, 23.

– Nuh عليه السلام belə dua etmişdir: **“Ey Rəbbim! Məni, valideynlərimi, evimə mömin kimi daxil olanları və *bütün* mömin kişi və qadınları bağışla!”**[1]

– İbrahim عليه السلام belə dua etmişdir: **“Ey Rəbbimiz! Haqq-hesab günü məni, valideynlərimi və möminləri bağışla!”**[2]

– Musa عليه السلام belə dua etmişdir: **“Ey Rəbbim! Mən özüm-özümə zülm etdim. Məni bağışla!” O da, onu bağışladı. Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir.”**[3]

– Şueyb عليه السلام öz qövmünə belə demişdir: **“Rəbbinizdən bağışlanma diləyin və Ona tövbə edin. Həqiqətən, Rəbbim Rəhmlidir, Sevəndir, *həm də Seviləndir*.”**[4]

– Saleh عليه السلام belə dua etmişdir: **“Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa *ibadətə layiq olan* məbudunuz yox-**

---

[1] Nuh, 28.
[2] İbrahim, 41.
[3] əl-Qəsəs, 16.
[4] Hud, 90.

**dur. O, sizi torpaqdan yaratdı və sizi orada sakin etdi. Elə isə, ondan bağışlanma diləyin, sonra da Ona tövbə edin. Şübhəsiz ki, Rəbbim yaxındır,** ***dua edənlərin çağırışına*** **cavab verəndir.""[1]**

**– "Davud Bizim onu sınağa çəkdiyimizi yəqinləşdirdi, Rəbbindən özünün bağışlanmasını dilədi və səcdəyə qapanıb tövbə etdi."[2]**

– Suleyman عليه السلام belə dua etmişdir: **"Ey Rəbbim! Məni bağışla və mənə elə bir səltənət ver ki, məndən sonra heç kimə nəsib olmasın. Həqiqətən, Sən Bəxşedənsən."[3]**

– Peyğəmbərimiz Muhəmmədə ﷺ Rəbbi belə buyurmuşdur: **"Həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!"[4]**

---

[1] Hud, 61.

[2] Sad, 24.

[3] Sad, 35.

[4] ən-Nəsr, 3.

Biz müsəlmanlar da peyğəmbərlərin عليهم السلام yolunu tutub getməliyik. Bir çox ayələrdə müsəlmanlara belə əmr edilir:

**“Allahdan bağışlanma diləyin! Şübhəsiz ki, Allah çox bağışlayandır, rəhmlidir.”**[1]

**“Bil ki, Allahdan başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur. Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə.”**[2]

**“Kim pis bir iş görərsə və ya özü özünə zülm edərsə, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın bağışlayan, rəhmli olduğunu görər.”**[3]

Qüdsi hədisdə uca Allah belə buyurur: **“Ey qullarım, siz gecə-gündüz günah işlər görürsünüz. Mən də bütün günahları bağışlayıram. Elə isə, Məndən bağışlanma diləyin, sizi bağışlayım!”**[4]

---

[1] əl-Bəqərə, 199.
[2] Muhəmməd, 19.
[3] ən-Nisa, 110.
[4] Səhih Muslim, 2577.

Peyğəmbər ﷺ də demişdir: **“Uca Rəbbimiz hər gecənin son üçdə birində dünya səmasına enir[1] və buyurur: “Mənəm Hökmdar! Mənəm Hökmdar! Mənə dua edən varmı, onun duasını qəbul edim?! Məndən istəyən varmı, ona istədiyini verim?! Məndən bağışlanma diləyən varmı, onu bağışlayım?!” Bu hal dan yeri sökülənədək davam edər.”[2]**

[1] Bu hədis “mütavatir” hədislərdəndir. Yəni bu, yalan danışacaqları təsəvvür olunmayan, əvvəlindən axırınadək isnadla bir toplumun digərindən rəvayət etdiyi hədisdir. Bu hədisi Peyğəmbərdən ﷺ otuza yaxın səhabə rəvayət etmişdir (İhtimam əl-Muhəddisin, 1/141-142).

[2] Səhih Muslim, 758.

# Qurandan seçilmiş dualar

﴿ رَبَّنَا وَٱجْعَلْنَا مُسْلِمَيْنِ لَكَ وَمِن ذُرِّيَّتِنَآ أُمَّةً مُّسْلِمَةً لَّكَ وَأَرِنَا مَنَاسِكَنَا وَتُبْ عَلَيْنَآ ۖ إِنَّكَ أَنتَ ٱلتَّوَّابُ ٱلرَّحِيمُ ﴾

**“Ey Rəbbimiz! İkimizi də Sənə təslim olanlardan et, nəslimizdən də Sənə təslim olacaq bir ümmət çıxart. Bizə ibadət qaydalarını göstər və tövbəmizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, Rəhmlisən!”[1]**

﴿ سَمِعْنَا وَأَطَعْنَا ۖ غُفْرَانَكَ رَبَّنَا وَإِلَيْكَ ٱلْمَصِيرُ ﴾

**“Eşitdik və itaət etdik! Ey Rəbbimiz, Səndən bağışlanma diləyirik, dönüş də, yalnız Sənədir!”[2]**

﴿ رَبَّنَا لَا تُؤَاخِذْنَآ إِن نَّسِينَآ أَوْ أَخْطَأْنَا ۚ رَبَّنَا وَلَا تَحْمِلْ عَلَيْنَآ إِصْرًا كَمَا حَمَلْتَهُۥ عَلَى ٱلَّذِينَ مِن قَبْلِنَا ۚ رَبَّنَا

[1] əl-Bəqərə, 128.
[2] əl-Bəqərə, 285.

وَلَا تُحَمِّلۡنَا مَا لَا طَاقَةَ لَنَا بِهِۦۖ وَٱعۡفُ عَنَّا وَٱغۡفِرۡ لَنَا وَٱرۡحَمۡنَآۚ
أَنتَ مَوۡلَىٰنَا فَٱنصُرۡنَا عَلَى ٱلۡقَوۡمِ ٱلۡكَٰفِرِينَ ﴾

**“Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yüklə yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə daşıtdırma! Bizi əfv et, bizi bağışla, bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafir qövmə *qalib gəlməkdə* bizə yardım et!”**[1]

﴿ رَبَّنَا لَا تُزِغۡ قُلُوبَنَا بَعۡدَ إِذۡ هَدَيۡتَنَا وَهَبۡ لَنَا مِن لَّدُنكَ رَحۡمَةًۚ
إِنَّكَ أَنتَ ٱلۡوَهَّابُ ﴾

**“Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma. Bizə Öz tərəfindən bir mərhəmət bəxş et. Həqiqətən, Sən Bəxşedənsən.”**[2]

---

[1] əl-Bəqərə, 286.

[2] Ali-İmran, 8.

﴿ رَبَّنَآ إِنَّنَآ ءَامَنَّا فَٱغۡفِرۡ لَنَا ذُنُوبَنَا وَقِنَا عَذَابَ ٱلنَّارِ ﴾

**"Ey Rəbbimiz! Həqiqətən, biz iman gətirdik, bizim günahlarımızı bağışla və bizi od əzabından qoru!"[1]**

﴿ رَبَّنَا ٱغۡفِرۡ لَنَا ذُنُوبَنَا وَإِسۡرَافَنَا فِيٓ أَمۡرِنَا وَثَبِّتۡ أَقۡدَامَنَا وَٱنصُرۡنَا عَلَى ٱلۡقَوۡمِ ٱلۡكَٰفِرِينَ ﴾

**"Ey Rəbbimiz, günahlarımızı və əməllərimizdə həddi aşmağımızı bizə bağışla, qədəmlərimizi sabit et və kafir qövmə qələbə çalmaqda bizə yardım et!"[2]**

﴿ رَبَّنَا مَا خَلَقۡتَ هَٰذَا بَٰطِلٗا سُبۡحَٰنَكَ فَقِنَا عَذَابَ ٱلنَّارِ
١٩١ رَبَّنَآ إِنَّكَ مَن تُدۡخِلِ ٱلنَّارَ فَقَدۡ أَخۡزَيۡتَهُۥۖ وَمَا لِلظَّٰلِمِينَ مِنۡ
أَنصَارٖ ١٩٢ رَّبَّنَآ إِنَّنَا سَمِعۡنَا مُنَادِيٗا يُنَادِي لِلۡإِيمَٰنِ أَنۡ
ءَامِنُواْ بِرَبِّكُمۡ فَـَٔامَنَّاۚ رَبَّنَا فَٱغۡفِرۡ لَنَا ذُنُوبَنَا وَكَفِّرۡ عَنَّا

[1] Ali-İmran, 16.
[2] Ali-İmran, 147.

سَيِّـَٔاتِنَا وَتَوَفَّنَا مَعَ ٱلۡأَبۡرَارِ ﴿١٩٣﴾ رَبَّنَا وَءَاتِنَا مَا وَعَدتَّنَا عَلَىٰ
رُسُلِكَ وَلَا تُخۡزِنَا يَوۡمَ ٱلۡقِيَٰمَةِۗ إِنَّكَ لَا تُخۡلِفُ ٱلۡمِيعَادَ ﴿١٩٤﴾ ﴾

**“Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən. Bizi Cəhənnəm əzabından qoru! Ey Rəbbimiz! Sən oda saldığın kəsi, əlbəttə, rəzil etmiş olarsan. Zalımların heç bir köməkçisi olmaz. Ey Rəbbimiz! Həqiqətən, biz: “Rəbbinizə iman gətirin!”– deyə imana çağıran bir çağırışçını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı yaxşılarla birgə al! Ey Rəbbimiz! Öz elçilərinin vasitəsi ilə vəd etdiklərini bizə ver və Qiyamət günü bizi rəzil etmə! Şübhəsiz ki, Sən vədinə xilaf çıxmazsan!”**[1]

﴿ رَبَّنَا ظَلَمۡنَآ أَنفُسَنَا وَإِن لَّمۡ تَغۡفِرۡ لَنَا وَتَرۡحَمۡنَا لَنَكُونَنَّ مِنَ
ٱلۡخَٰسِرِينَ ﴾

[1] Ali-İmran, 191-194.

**“Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan və bizə rəhm etməsən, əlbəttə, ziyana uğrayanlardan olarıq.”[1]**

رَبَّنَا ﴿أَنتَ وَلِيُّنَا فَٱغْفِرْ لَنَا وَٱرْحَمْنَا ۖ وَأَنتَ خَيْرُ ٱلْغَٰفِرِينَ

وَٱكْتُبْ لَنَا فِى هَٰذِهِ ٱلدُّنْيَا حَسَنَةً وَفِى ٱلْءَاخِرَةِ إِنَّا هُدْنَآ

إِلَيْكَ﴾

**Ey Rəbbimiz! “Sən bizim Himayəçimizsən! Bizi bağışla və bizə rəhm et! Axı Sən bağışlayanların ən yaxşısısan. Bizim üçün bu dünyada da yaxşılıq yaz, axirətdə də. Həqiqətən, biz, Sənə üz tutduq!”[2]**

﴿رَبِّ إِنِّىٓ أَعُوذُ بِكَ أَنْ أَسْـَٔلَكَ مَا لَيْسَ لِى بِهِۦ عِلْمٌ ۖ وَإِلَّا

تَغْفِرْ لِى وَتَرْحَمْنِىٓ أَكُن مِّنَ ٱلْخَٰسِرِينَ﴾

**“Ey Rəbbim! Bilmədiyim bir şeyi Səndən istəməkdən Sənə sığınıram. Əgər**

[1] əl-Əraf, 23.

[2] əl-Əraf, 155-156.

**məni bağışlamasan, mənə rəhm etməsən, ziyana uğrayanlardan olaram."[1]**

﴿ رَبَّنَآ ءَاتِنَا مِن لَّدُنكَ رَحۡمَةٗ وَهَيِّئۡ لَنَا مِنۡ أَمۡرِنَا رَشَدٗا ﴾

**"Ey Rəbbimiz! Bizə Öz tərəfindən mərhəmət bəxş et və işimizdə bizə düz yol göstər!"[2]**

﴿ رَبِّ أَوۡزِعۡنِيٓ أَنۡ أَشۡكُرَ نِعۡمَتَكَ ٱلَّتِيٓ أَنۡعَمۡتَ عَلَيَّ وَعَلَىٰ وَٰلِدَيَّ وَأَنۡ أَعۡمَلَ صَٰلِحٗا تَرۡضَىٰهُ وَأَدۡخِلۡنِي بِرَحۡمَتِكَ فِي عِبَادِكَ ٱلصَّٰلِحِينَ ﴾

**"Ey Rəbbim! Həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməli etmək üçün mənə ilham ver və məni Öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!"[3]**

---

[1] Hud, 47.
[2] əl-Kəhf, 10.
[3] ən-Nəml, 19.

﴿ رَبِّ إِنِّي ظَلَمْتُ نَفْسِي فَٱغْفِرْ لِي ﴾

**“Ey Rəbbim! Mən özüm-özümə zülm etdim. Məni bağışla!”[1]**

﴿ رَبَّنَا ٱغْفِرْ لَنَا وَلِإِخْوَٰنِنَا ٱلَّذِينَ سَبَقُونَا بِٱلْإِيمَٰنِ وَلَا تَجْعَلْ فِي قُلُوبِنَا غِلًّا لِّلَّذِينَ ءَامَنُوا۟ رَبَّنَآ إِنَّكَ رَءُوفٌ رَّحِيمٌ ﴾

**“Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən, Sən olduqca şəfqətlisən, rəhmlisən!”[2]**

﴿ رَبَّنَا لَا تَجْعَلْنَا فِتْنَةً لِّلَّذِينَ كَفَرُوا۟ وَٱغْفِرْ لَنَا رَبَّنَآ إِنَّكَ أَنتَ ٱلْعَزِيزُ ٱلْحَكِيمُ ﴾

**“Ey Rəbbimiz! Bizi kafirlər üçün sınaq etmə. Ey Rəbbimiz, bizi bağışla. Həqiqə-**

---

[1] əl-Qəsəs, 16.

[2] əl-Həşr, 10.

**tən, Sən Qüdrətlisən, Hikmət sahibisən!"**[1]

﴿ رَبَّنَآ أَتۡمِمۡ لَنَا نُورَنَا وَٱغۡفِرۡ لَنَآۖ إِنَّكَ عَلَىٰ كُلِّ شَيۡءٖ قَدِيرٞ ﴾

**"Ey Rəbbimiz! Nurumuzu bizim üçün tamamla və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!"**[2]

﴿ رَّبِّ ٱغۡفِرۡ لِي وَلِوَٰلِدَيَّ وَلِمَن دَخَلَ بَيۡتِيَ مُؤۡمِنٗا وَلِلۡمُؤۡمِنِينَ وَٱلۡمُؤۡمِنَٰتِ ﴾

**"Ey Rəbbim! Məni, valideynlərimi, evimə mömin kimi daxil olanları və *bütün* mömin kişi və qadınları bağışla!"**[3]

[1] əl-Mumtəhənə, 5.
[2] ət-Təhrim, 8.
[3] Nuh, 28.

## Sünnədən seçilmiş dualar

﴿اللَّهُمَّ اغْفِرْ لِي وَارْحَمْنِي وَأَلْحِقْنِي بِالرَّفِيقِ الأَعْلَى﴾

Allahumməğ-firli, vər-həmni və əlhiqni bir-rəfiqil-ə'la!

Allahım, məni bağışla, mənə rəhm et və məni uca dostlara qovuşdur![1]

﴿اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ، يَا اَللَّهُ، بِأَنَّكَ الوَاحِدُ الْأَحَدُ الصَّمَدُ، الَّذِي لَمْ يَلِدْ وَلَمْ يُولَدْ، وَلَمْ يَكُنْ لَهُ كُفُوًا أَحَدٌ، أَنْ تَغْفِرَ لِي ذُنُوبِي، إِنَّكَ أَنْتَ الْغَفُورُ الرَّحِيمُ﴾

Allahummə inni əs'əluk, yəə Allah, bi ənnəkəl-Vahidul-Əhədus-Saməd əlləzi ləm yəlid va ləm yuləd va ləm yəkun ləhu kufuvən əhəd, ən təğfira li zunubi, innəkə əntəl-Ğafurur-Rahim.

Allahım, Sənə yalvarıram! Ey Allah, Sən Təksən, *heç kəsə və heç nəyə* möhtac de-

---

[1] Səhih əl-Buxari, 5674; Səhih Muslim, 2444.

yilsən, doğmayan, doğulmayan və heç bir tayı-bərabəri olmayansan. Günahlarımı mənə bağışla! Şübhəsiz ki, Sən Bağışlayansan, Rəhmlisən.[1]

﴿رَبِّ اغْفِرْ لِي خَطِيئَتِي وَجَهْلِي وَإِسْرَافِي فِي أَمْرِي كُلِّهِ وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنِّي، اللَّهُمَّ اغْفِرْ لِي هَزْلِي وَ جِدِّي وَ خَطَايَ وَعَمْدِي وَكُلُّ ذَلِكَ عِنْدِي، اللَّهُمَّ اغْفِرْ لِي مَا قَدَّمْتُ وَمَا أَخَّرْتُ وَمَا أَسْرَرْتُ وَمَا أَعْلَنْتُ أَنْتَ الْمُقَدِّمُ وَأَنْتَ الْمُؤَخِّرُ وَأَنْتَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

Rabbiğ-firli xətiəti və cəhli və israfi fi əmri kullihi və mə əntə ələmu bihi minni. Allahumməğ-firli həzli və ciddi və xətayə və amdi və kullu zəlikə indi. Allahumməğ-firli mə qaddəmtu və mə əxxartu və mə əsrartu və mə ə'ləntu, əntəl-muqəddimu və

---

[1] Sunən Əbu Davud, 1493; Sunən ən-Nəsai, 1/191; Musnəd İmam Əhməd, 4/338.

əntəl-muəxxiru və əntə alə kulli şeyin qədir.

Ey Rəbbim, mənim günahımı, bilmədiklərimi, bütün işlərimdə israfa yol verməyimi və məndən daha yaxşı bildiyin xətalarımı bağışla. Allahım, mənim zarafatla və ya ciddi olaraq, səhvən və ya bilərəkdən etdiyim xətalarımı bağışla! Bunların hamısının məndə olması mümkündür. Allahım, mənim əvvəl etdiyim, sonra edəcəyim, gizlin saxladığım və üzə çıxardığım *pis əməllərimi* bağışla! Əvvələ çəkən də Sənsən, təxirə salan da Sənsən və Sən hər şeyə qadirsən.[1]

﴾رَبِّ أَعِنِّي وَلاَ تُعِنْ عَلَيَّ، وَانْصُرْنِي وَلاَ تَنْصُرْ عَلَيَّ، وَامْكُرْ لِي وَلاَ تَمْكُرْ عَلَيَّ، وَاهْدِنِي وَيَسِّرِ الْهُدَى إِلَيَّ، وَانْصُرْنِي عَلَى مَنْ بَغَى عَلَيَّ، رَبِّ اجْعَلْنِي لَكَ شَكَّارًا، لَكَ ذَكَّارًا، لَكَ رَهَّابًا، لَكَ مِطْوَاعًا، لَكَ

[1] Səhih əl-Buxari, 6399; Səhih Muslim, 2719.

مُخْبِتًا، إِلَيْكَ أَوَّاهًا، مُنِيبًا، رَبِّ تَقَبَّلْ تَوْبَتِي، وَاغْسِلْ حَوْبَتِي، وَأَجِبْ دَعْوَتِي، وَثَبِّتْ حُجَّتِي، وَاهْدِ قَلْبِي، وَسَدِّدْ لِسَانِي، وَاسْلُلْ سَخِيمَةَ قَلْبِي﴾

Rabbi əinni va lə tuın aleyyə, vənsurni və lə tənsur aleyyə, vəmkur li və lə təmkur aleyyə, vəhdini və yəssiril-hudə ileyyə, vənsurni alə mən bəğa aleyyə. Rabbi-c'alni ləkə şəkkəran, ləkə zəkkəran, ləkə rahhəə-bən, ləkə mitvaən, ləkə muxbitən, ileykə əvvahən munibən. Rabbi təqabbəl tovbəti, vəğsil hovbəti və əcib də’vəti və səbbit huccəti, vəhdi qalbi və səddid lisəəni, vəslul səxıimətə qalbi.

Ey Rəbbim, mənə kömək et, əleyhimə olan işlərdə heç kəsə kömək etmə. Mənə qələbə bəxş et, heç kəsə mənim üzərimdə qələbə qazandırma. Mənə düşmənlərimə hiylə qurmağa kömək ol, başqasının mənə qarşı hiylə qurmasına yol vermə. Mənə hi-dayət ver və mənim üçün doğru yola yö-

nəlməyi asanlaşdır. Mənə təcavüz edənə qalib gəlməyimə yardım et. Ey Rəbbim, məni yalnız Sənə şükür edən, yalnız Səni zikr edən, yalnız Səndən qorxan, yalnız Sənə itaət edən, yalnız Sənə boyun əyən, yalnız Sənə yalvaran və yalnız Sənə üz tutan bir bəndə et. Ey Rəbbim, mənim tövbəmi qəbul et, günahlarımı yu, duamı qəbul et, dəlilimi möhkəmləndir, qəlbimi haqqa yönəlt, dilimi doğruluğa öyrət və qəlbimin qara ləkəsini yox et!"[1]

﴿اللَّهُمَّ لَكَ الْحَمْدُ، أَنْتَ نُورُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَمَنْ فِيهِنَّ، وَلَكَ الْحَمْدُ، أَنْتَ قَيِّمُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَمَنْ فِيهِنَّ، وَلَكَ الْحَمْدُ، أَنْتَ مَالِكُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَمَنْ فِيهِنَّ، وَلَكَ الْحَمْدُ، أَنْتَ الْحَقُّ وَوَعْدُكَ الحَقُّ، وَلِقَاؤُكَ حَقٌّ، وَقَوْلُكَ حَقٌّ، وَالْجَنَّةُ

[1] Sunən ət-Tirmizi, 3551; Sunən İbn Macə, 3830; Musnəd İmam Əhməd, 1/277; Səhih əl-Ədəb əl-Mufrad, 517.

حَقٌّ، وَالنَّارُ حَقٌّ، وَالسَّاعَةُ حَقٌّ، وَالنَّبِيُّونَ حَقٌّ، وَمُحَمَّدٌ حَقٌّ، اللَّهُمَّ لَكَ أَسْلَمْتُ، وَبِكَ آمَنْتُ، وَعَلَيْكَ تَوَكَّلْتُ، وَإِلَيْكَ أَنَبْتُ، وَبِكَ خَاصَمْتُ، وَإِلَيْكَ حَاكَمْتُ، فَاغْفِرْ لِي مَا قَدَّمْتُ وَمَا أَخَّرْتُ، وَمَا أَسْرَرْتُ وَمَا أَعْلَنْتُ، أَنْتَ الْمُقَدِّمُ وَأَنْتَ الْمُؤَخِّرُ، لَا إِلَهَ إِلَّا أَنْتَ﴾

Allahummə ləkəl-həmdu əntə nurus-səməvati vəl-ardı və mən fihinnə, və ləkəl-həmdu əntə qayyimus-səməvati vəl-ardı və mən fihinnə, və ləkəl-həmdu əntə məlikus-səməvati vəl-ard və mən fihinnə, və ləkəl-həmdu əntəl-həqq, və va'dukəl-həqq, va liqaukə həqq, və qaulukə həqq, vəl-cənnətu həqq, vən-nəru həqq, vəs-səatu həqq, vən-nəbiyyunə həqq, və Muhəmmədun ﷺ həqq. Allahummə ləkə əsləmtu, və bikə əaməntu, və aleykə təvəkkəltu, va ileykə ənəbtu, və bikə xasəmtu, və ileykə hakəmtu, fəğfir li mə qaddəmtu və mə əxxartu va

mə əsrartu va mə ə'ləntu, əntəl-muqaddimu və əntəl-muəxxiru lə iləhə illə ənt.[1]

Allahım, həmd Sənədir. Sən göylərin, yerin və onlarda olanların nurusan. Həmd Sənədir. Sən göylərin, yerin və onlarda olanların hamisisən. Həmd Sənədir. Sən göylərin və yerin Hökmdarısan. Həmd Sənədir. Sən Haqsan. Verdiyin vəd haqdır. Sənə qovuşmaq haqdır. Dediyin söz haqdır. Cənnət haqdır. Cəhənnəm haqdır. Qiyamət haqdır. Peyğəmbərlər haqdır. Muhəmməd ﷺ haqdır. Allahım! Sənə təslim oldum, Sənə iman gətirdim, Sənə təvəkkül etdim, tövbə edib Sənə döndüm, Sənin uğrunda mübarizə apardım və Sənin hökmünə üz tutdum. Əvvəl etdiyim, sonra edəcəyim, gizlin saxladığım və üzə çıxardığım pis əməllərimi bağışla! Əvvələ çəkən də Sənsən, təxirə salan da Sənsən. Səndən başqa *ibadətə layiq* məbud yoxdur.[2]

---

[1] Peyğəmbər ﷺ gecə namazında bu duanı oxuyardı.

[2] Səhih əl-Buxari, 1120; Səhih Muslim, 769.

﴿رَبِّ اغْفِرْ لِي خَطِيئَتِي يَوْمَ الدِّينِ﴾

Rabbiğ-firli xətiəti yovməd-din.

Ey Rəbbim, Din (Qiyamət) günü mənim günahlarımı bağışla![1]

﴿اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ أَنْ أُشْرِكَ بِكَ وَأَنَا أَعْلَمُ، وَأَسْتَغْفِرُكَ لِمَا لَا أَعْلَمُ﴾

Allahummə inni əuzu bikə ən uşrikə bikə va ənə ə'ləm, va əstəğfirukə limə lə ə'ləm.

Allahım, bilərəkdən Sənə şərik qoşmaqdan Sənə sığınıram və bilmədən etdiklərimə görə də Səndən bağışlanma diləyirəm![2]

﴿اللَّهُمَّ إِنِّي أَعُوذُ بِرِضَاكَ مِنْ سَخَطِكَ، وَبِمُعَافَاتِكَ مِنْ عُقُوبَتِكَ، وَأَعُوذُ بِكَ مِنْكَ، لاَ أُحْصِي ثَنَاءً عَلَيْكَ أَنْتَ كَمَا أَثْنَيْتَ عَلَى نَفْسِكَ﴾

[1] Səhih Muslim, 214.

[2] əl-Ədəb əl-Mufrad, 716.

Allahummə inni əuzu birıdakə min səxatikə və bimuafatikə min uqubətik, və əuzu bikə minkə, lə uhsı səna'ən aleykə əntə kəmə əsneytə alə nəfsik.

Allahım, Sənin qəzəbindən razılığına və cəzandan əfvinə sığınıram. Səndən Sənə sığınıram. Mən Səni *layiqincə* tərif edə bilmərəm. Sən Özün Özünü tərif etdiyin kimisən![1]

﴿اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ الثَّبَاتَ فِي الْأَمْرِ، وَالْعَزِيمَةَ عَلَى الرُّشْدِ، وَنَسْأَلُكَ مُوجِبَاتِ رَحْمَتِكَ، وَعَزَائِمَ مَغْفِرَتِكَ، وَنَسْأَلُكَ شُكْرَ نِعْمَتِكَ، وَحُسْنَ عِبَادَتِكَ، وَنَسْأَلُكَ قَلْباً سَلِيماً، وَلِسَاناً صَادِقاً، وَنَسْأَلُكَ مِنْ خَيْرِ مَا تَعْلَمُ، وَنَعُوذُ بِكَ مِنْ شَرِّ مَا تَعْلَمُ، وَنَسْتَغْفِرُكَ لِمَا تَعْلَمُ، إِنَّكَ أَنْتَ عَلاَّمُ الْغُيُوبِ﴾

[1] Səhih Muslim, 486.

Allahummə inni əs'əlukəs-səbatə fil-əmri vəl-azimətə alər-ruşd, və əs'əlukə mucibəti rahmətikə və azaimə məğfiratik, və əs'əlukə şukra ni'mətikə va husnə ibadətik, və əs'əlukə qalbən səlimən və lisanən sadiqan, və əs'əlukə min xayri mə tə'ləm, və əuzu bikə min şərri mə tə'ləm, və əstəğfirukə limə tə'ləm, innəkə əntə alləmul-ğuyub.

Allahım, Səndən dində sabit qalmağımı və doğruluğa can atmağımı, Sənin rəhmətinə qovuşduran və məğfirətinə yetişdirən əməlləri yerinə yetirməyi, Sənin nemətlərinə şükür etməyi və Sənə gözəl şəkildə ibadət etməyi, habelə, salamat qəlb və düzdanışan dil diləyirəm. Bildiyin hər bir xeyiri Səndən diləyir, bildiyin hər bir şərdən Sənə sığınır və bildiyin günahlarıma görə Səndən bağışlanma diləyirəm. Şübhəsiz ki, Sən qeyblərdə olanları Bilənsən.[1]

[1] Təbərani, əl-Mocəm əl-Kəbir, 7/335-336; Silsilə əl-Əhadis əs-Səhihə, 3228.

﴿اللهُمَّ إِنِّي أَسْأَلُكَ فِعْلَ الْخَيْرَاتِ وَتَرْكَ الْمُنْكَرَاتِ، وَحُبَّ الْمَسَاكِينِ، وَأَنْ تَغْفِرَ لِي وَتَرْحَمَنِي، وَإِذَا أَرَدْتَ فِتْنَةً فِي قَوْمٍ فَتَوَفَّنِي غَيْرَ مَفْتُونٍ، وَأَسْأَلُكَ حُبَّكَ وَحُبَّ مَنْ يُحِبُّكَ وَحُبَّ عَمَلٍ يُقَرِّبُنِي إِلَى حُبِّكَ﴾

Allahummə inni əs'əlukə fi'ləl-xayrati və tərkəl-munkərati və hubbəl-məsakini və ən təğfira li və tərhəməni va izəə əradtə fitnətə qovmin fətəvəffəni ğayra məftun, və əs'əlukə hubbəkə və hubbə mən yuhibbukə və hubbə aməlin yuqarribuni ilə hubbik.

Allahım, xeyirxahlıq etməyi, pis əməllərdən çəkinməyi, miskinləri sevməyi, məni bağışlamağını, mənə rəhm etməyini və hər hansı bir qövmə bəla göndərmək istədikdə, bəla mənə toxunmazdan əvvəl, canımı almağını Səndən istəyirəm. Sənin məhəbbətini və Səni sevənin məhəbbətini qazanmağımı, Sənin məhəbbətinə yaxınlaş-

dıracaq hər bir əməli sevməyimi Səndən diləyirəm![1]

﴿اللَّهُمَّ إِنَّكَ عَفُوٌّ تُحِبُّ الْعَفْوَ فَاعْفُ عَنِّي﴾

Allahummə innəkə afuvvun tuhibul-afvə fə'fu anni.

Allahım, Sən Bağışlayansan, bağışlamağı sevirsən, məni bağışla![2]

﴿أَسْتَغْفِرُ اللَّهَ العَظِيمَ الَّذِى لاَ إِلَهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ وَأَتُوبُ إِلَيْهِ﴾

Əstəğfiru-llahəl-azımə-lləzi lə iləhə illə huval-həyyul-qayyum va ətubu ileyhi.

Özündən başqa məbud olmayan, Əzəmətli, Yaşayan, Qəyyum Allahdan bağışlanma diləyirəm və Ona tövbə edirəm![1]

---

[1] Sunən ət-Tirmizi, 3235; Musnəd İmam Əhməd, 5/243; Mişkatul Məsabih, 747.

[2] Sunən ət-Tirmizi, 3822; Sunən ən-Nəsai əl-Kubra, 7665; Sunən İbn Macə, 3850; Musnəd İmam Əhməd, 6/170; Silsilə əl-Əhadis əs-Səhihə, 3337.

﴿اللَّهُمَّ إِنِّي ظَلَمْتُ نَفْسِي ظُلْمًا كَثِيرًا، وَلاَ يَغْفِرُ الذُّنُوبَ إِلَّا أَنْتَ، فَاغْفِرْ لِي مَغْفِرَةً مِنْ عِنْدِكَ، وَارْحَمْنِي إِنَّكَ أَنْتَ الغَفُورُ الرَّحِيمُ﴾

Allahummə inni zaləmtu nəfsi zulmən kəsiran, və lə yəğfiruz-zunubə illə ənt, fəğfir li məğfiratən min indik, vərhəmni, innəkə əntəl-ğafurur-rahim.

Allahım, mən özümə çoxlu zülm etdim. Günahları yalnız Sən bağışlayırsan. Özün günahımdan keçməklə məni bağışla və mənə rəhm et. Həqiqətən, Sən Bağışlayansan, Rəhmlisən![2]

﴿اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنْ فَضْلِكَ وَرَحْمَتِكَ فَإِنَّهُ لَا يَمْلِكُهَا إِلَّا أَنْتَ﴾

Allahummə inni əs'əlukə min fədlikə və rahmətik, fə innəhu lə yəmlikuhə illə ənt.

[1] Sunən Əbu Davud, 1519; Səhih Əbu Davud, 1358.

[2] Səhih əl-Buxari, 834; Səhih Muslim, 2705.

Allahım, Səndən lütf və mərhəmət diləyirəm. O, yalnız Sənin ixtiyarındadır.[1]

﴿اللَّهُمَّ رَحْمَتَكَ أَرْجُو فَلا تَكِلْنِي إِلَى نَفْسِي طَرْفَةَ عَيْنٍ وَأَصْلِحْ لِي شَأْنِي كُلَّهُ لَا إِلَه إِلَّا أَنْت﴾

Allahummə rahmətəkə ərcu, fələ təkilni ilə nəfsi tarfətə ayn, və əslih li şə'ni kulləh, lə iləhə illə ənt.

Allahım, Sənin mərhəmətini diləyirəm! Məni bir göz qırpımı belə nəfsimlə başlı-başına buraxma! Bütün işlərimi yoluna qoy! Səndən başqa məbud yoxdur![2]

﴿اللَّهُمَّ اغْفِرْ لِي ذَنْبِي وَوَسِّعْ لِي فِي دَارِي وَبَارِكْ لِي فِيمَا رَزَقْتَنِي﴾

[1] Əbu Nueym, əl-Hilyə, 5/36; Təbərani, əl-Mocəm əl-Kəbir, 10379; Silsilə əl-Əhadis əs-Səhihə, 1543.

[2] Sunən Əbu Davud, 5090; Musnəd İmam Əhməd, 2/42; Səhih əl-Cami, 3388.

Allahummə-ğfir li zənbi və vəssi' li fi dari və barik li fi rizqi.

Allahım, günahımı bağışla, yaşadığım yeri genişlət və ruzimi bərəkətləndir![1]

﴿اللَّهُمَّ اغْفِرْ لِي ذَنْبِي كُلَّهُ، دِقَّهُ وَجِلَّهُ، وَأَوَّلَهُ وَآخِرَهُ، وَعَلاَنِيَتَهُ وَسِرَّهُ﴾

Allahummə-ğfir li zənbi kulləhu, diqqahu və cilləhu, və əvvələhu və əxirahu və ələniyətəhu və sirrah.

Allahım, günahlarımın hamısını – kiçiyini və böyüyünü, əvvəlincisini və axırıncısını, aşkarını və gizlisini mənə bağışla![2]

﴿اللَّهُمَّ اغْفِرْ لِي، وَاهْدِنِي، وَارْزُقْنِي، وَعَافِنِي، أَعُوذُ بِاللَّهِ مِنْ ضِيقِ الْمَقَامِ يَوْمَ الْقِيَامَةِ﴾

---

[1] Sunən ət-Tirmizi, 3500; Musnəd İmam Əhməd, 4/63; Səhih əl-Cami, 1265.

[2] Səhih Muslim, 483.

Allahumğ-firli vəhdini vərzuqni və afini. Əuzu billəhi min diqil-məqami yovməl-qiyamə.

Allahım məni bağışla, məni doğru yola yönəlt, mənə ruzi ver, mənə salamatlıq bəxş et. Qiyamət günündəki dar yerdən Allaha sığınıram![1]

﴿اللَّهُمَّ اغْفِرْ لِي ذَنْبِي﴾

Allahumməğ-firli zənbi.[2]

Allahım mənim günahımı bağışla.

---

[1] Sunən Əbu Davud, 5085; Sunən İbn Macə, 1356; Səhih əl-Cami, 742.

[2] Səhih Muslim, 7162.

## Bəzi səhabələrin etdiyi dualar

– Əvzai رحمه الله demişdir: “Peyğəmbərin ﷺ səhabələrindən biri özünün tərif olunduğunu eşitdikdə, belə deyərdi:

﴿اللَّهُمَّ لاَ تُؤَاخِذْنِي بِمَا يَقُولُونَ، وَاجْعَلْنِي خَيْراً مما يَظُنُّونَ، وَاغْفِرْ لِي مَا لا يَعْلَمُونَ﴾

Allahummə, lə tuaxizni bimə yəqulun, vəc-alni xayran mimmə yəzunnun, vəğ-firli mə lə yə’ləmun.

Allahım, onların bu sözünə görə məni qınama, məni onların barəmdə zənn etdiklərindən də xeyirli et və onların bilmədikləri şeyləri *mənə* bağışla.[1]

– Əbu Bəkr əs-Siddiq رضي الله عنه birisinin onu təriflədiyini eşitdikdə deyərdi: “Allahım, sən mənim kim olduğumu yaxşı bilirsən. Mən də özüm-özümü yaxşı tanıyıram. Allahım, məni onların barəmdə zənn etdiklərindən də xeyirli et, onların bilmədik-

---

[1] Beyhəqi, Şoəbul-İman, 4/228.

ləri şeyləri *mənə* bağışla və onların bu sözünə görə məni qınama."[1]

– Ömər ibn əl-Xattab ﷺ dua edib deyərdi:

﴿اللَّهُمَّ إِيَّاكَ نَعْبُدُ، وَلَكَ نُصَلِّي وَنَسْجُدُ، وَإِلَيْكَ نَسْعَى وَنَحْفِدُ، نَرْجُو رَحْمَتَكَ، وَنَخْشَى عَذَابَكَ، إِنَّ عَذَابَكَ بِالْكَافِرِينَ مُلْحَقٌ، اللَّهُمَّ إِنَّا نَسْتَعِينُكَ، وَنَسْتَغْفِرُكَ، وَنُثْنِي عَلَيْكَ الْخَيْرَ، وَلاَ نَكْفُرُكَ، وَنُؤْمِنُ بِكَ، وَنَخْضَعُ لَكَ، وَنَخْلَعُ مَنْ يَكْفُرُكَ﴾

Allahummə iyyəkə nə'budu, və ləkə nusalli və nəscud, və ileykə nəs'a və nəhfid, nərcu rahmətəkə və nəxşə azəbək, innə azəbəkə bil-kəfirinə mulhəq. Allahummə innə nəstə'ınukə və nəstəğfiruk, və nusni aleykəl-xayra və lə nəkfuruk, və nu'minu bikə və nəxdau ləkə va nəxləu mən yəkfuruk.

---

[1] Əsəd əl-Ğabə, 3/324.

Allahım, biz yalnız Sənə ibadət edirik! Sənin üçün namaz qılır və Sənə səcdə edirik. Sənə doğru can atır və qulluq etməyə tələsirik. Sənin mərhəmətini diləyir və Sənin əzabından qorxuruq. Əlbəttə, əzabın kafirlərə yetişəcək. Allahım, Səndən kömək istəyir və Səndən bağışlanma diləyirik. Xeyri Sənə aid edib Sənə tərif deyirik və Sənə qarşı küfr etmirik. Sənə iman gətirir və Sənə boyun əyirik. Sənə qarşı küfr edənləri tərk edirik![1]

– Ömər ibn əl-Xattab ﵁ həmçinin dua edib deyərdi:

﴿اللَّهُمَّ أَسْتَغْفِرُكَ لِذَنْبِي، وَأَسْتَهْدِيكَ لِمَرَاشِدِ أَمْرِي، وَأَتُوبُ إِلَيْكَ فَتُبْ عَلَيَّ، إِنَّكَ أَنْتَ رَبِّي﴾

Allahummə əstəğfirukə lizənbi, və əstəhdikə liməraşidi əmri, və ətubu ileykə fətub aleyyə innəkə əntə Rabbi.

[1] Beyhəqi, Sunən əl-Kubra, 2/210; İrva əl-Ğəlil, 2/170.

Allahım, günahlarıma görə Səndən bağışlanma diləyir, işlərimin yoluna qoyulması üçün Səndən hidayət diləyir və Sənə tövbə edirəm, mənim tövbəmi qəbul et. Həqiqətən də, Sən mənim Rəbbimsən.[1]

– Əli ﷺ demişdir: "Allahın sevdiyi kəlmələrdən biri də, bəndənin belə deməsidir:

﴿اللَّهُمَّ لَا إِلَهَ إِلَّا أَنْتَ، اللَّهُمَّ لَا أَعْبُدُ إِلَّا إِيَّاكَ، اللَّهُمَّ لَا أُشْرِكُ بِكَ شَيْئًا، اللَّهُمَّ إِنِّي قَدْ ظَلَمْتُ نَفْسِي فَاغْفِرْ لِي ذُنُوبِي، إِنَّهُ لَا يَغْفِرُ الذُّنُوبَ إِلَّا أَنْتَ﴾

Allahummə lə ilahə illə ənt. Allahummə lə ə'budu illə iyyak. Allahummə lə uşriku bikə şey'ən. Allahummə inni qad zaləmtu nəfsi fəğfir-li zunubi, innəhu lə yəğfiruz-zunubə illə ənt.

[1] Musənnəf İbn Əbu Şeybə, 6/65.

Allahım, Səndən başqa *ibadətə layiq* ilah yoxdur. Allahım, Səndən başqa heç kəsə ibadət etmirəm. Allahım, heç bir şeyi Sənə şərik qoşmuram. Allahım, mən özümə zülm etmişəm, mənim günahlarımı bağışla. Şübhəsiz ki, günahları ancaq Sən bağışlayırsan.[1]

– Abdullah ibn Məsud ﵁ namazı bitirdikdə belə dua edərdi:

﴿اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنْ مُوجِبَاتِ رَحْمَتِكَ، وَعَزَائِمَ مَغْفِرَتِكَ، وَأَسْأَلُكَ الْغَنِيمَةَ مِنْ كُلِّ بِرٍّ، وَالسَّلَامَةَ مِنْ كُلِّ إِثْمٍ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْفَوْزَ بِالْجَنَّةِ وَالْجَوَازَ مِنَ النَّارِ، اللَّهُمَّ لَا تَدَعْ لَنَا ذَنْبًا إِلَّا غَفَرْتَهُ، وَلَا هَمًّا إِلَّا فَرَّجْتَهُ، وَلَا حَاجَةً إِلَّا قَضَيْتَهَا﴾

Allahummə inni əs'əlukə min mucibati rəhmətikə və əzaimə məğfirətik, və əs'əlukəl-ğənimətə min kulli birrin vəs-səlamətə

[1] Musənnəf İbn Əbu Şeybə, 6/67.

min kulli ism. Allahummə inni əs'əlukəl-fovzə bil-cənnəti vəl-cəvazə minən-nar. Allahummə lə təda' lənə zənbən illə ğafərtəh, vələ həmmən illə fərractəh, vələ hacətən illə qədaytəhə.

Allahım, Sənin rəhmətinə qovuşduran və məğfirətinə yetişdirən əməlləri yerinə yetirməyi, habelə, hər bir yaxşılığını savabını və hər bir günahdan salamat qalmağı diləyirəm. Allahım, Səndən Cənnəti qazanmağı və Cəhənnəmdən qurtulmağı diləyirəm. Allahım, bizim hər bir günahımızı bağışla, hər bir sıxıntımızı aradan qaldır və hər bir ehtiyacımızı ödə.[1]

– Abdullah ibn Məsud ﷺ çox vaxt belə dua edərdi:

﴿رَبَّنَا أَصْلِحْ بَيْنَنَا، وَاهْدِنَا سَبِيلَ الإِسْلَامِ، وَنَجِّنَا مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ، وَاصْرِفْ عَنَّا الْفَوَاحِشَ مَا ظَهَرَ مِنْهَا وَمَا بَطَنَ، وَبَارِكْ لَنَا فِي أَسْمَاعِنَا وَأَبْصَارِنَا

[1] Musənnəf İbn Əbu Şeybə, 6/68.

وَقُلُوبِنَا وَأَزْوَاجِنَا وَذُرِّيَّاتِنَا، وَتُبْ عَلَيْنَا إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ، وَاجْعَلْنَا شَاكِرِينَ لِنِعْمَتِكَ، مُثْنِينَ بِهَا، قَائِلِينَ بِهَا، وَأَتِمَّهَا عَلَيْنَا﴾

Rabbənə əslih beynənə, vəhdinə subuləl-İslam, və nəccina minəz-zulumati ilən-nur, vəsrif annəl-fəvahişə mə zahərə minhə və mə bətan, və barik lənə fi əsmainə və əbsarinə və qulubinə və əzvacinə və zurriyyatinə, və tub aleynə innəkə əntət-Təvvabur-Rəhim, vəc-alnə şakirinə li nimətikə, musninə bihə, qailinə bihə və ətmimhə aleynə.

Ey Rəbbimiz! Bizim aramızdakı münasibətləri düzəlt, bizi İslam yoluna yönəlt, bizi zülmətlərdən qurtarıb nura çıxart. Aşkara çıxan və gizlin qalan yaramaz əməlləri *və pis sözləri* bizdən uzaq et. Qulaqlarımıza, gözlərimizə, qəlbimizə, zövcələrimizə və nəslimizə bərəkət ver. Bizim tövbələrimizi qəbul et. Həqiqətən, Sən tövbələri

qəbul Edənsən, Rəhmlisən! Bizləri Sənin nemətinə şükür edən, onları tərifləyən, onlar barədə danışan kimsələrdən et və bizə verdiyin nemətlərini tamamla.[1]

– Abdullah ibn Məsud ﷺ həmçinin belə dua edərdi:

﴾اللَّهُمَّ أَدْخِلْنِي الْجَنَّةَ بِرَحْمَتِكَ، وَمَغْفِرَتِكَ، وَفَضْلِكَ﴿

Allahummə ədxilniyəl-cənnətə birahmətikə və məğfiratikə və fədlik.

Allahım, Öz rəhmətin, məğfirətin və lütfün sayəsində məni Cənnətə daxil et![2]

– Ənəs ibn Malik ﷺ belə dua edərdi:

﴾اللَّهُمَّ اغْفِرْ لَنَا وَارْحَمْنَا، وَآتِنَا فِي الدُّنْيَا حَسَنَةً، وَفِي الْآخِرَةِ حَسَنَةً، وَقِنَا عَذَابَ النَّارِ﴿

Allahumməğ-fir lənə, vər-həmnə, və atinə fid-dunya həsənə, və fil-axirəti həsənə, və qina əzabən-nar.

[1] Buxari, əl-Ədəb əl-Mufrad, 630.

[2] Musənnəf İbn Əbu Şeybə, 6/68.

Allahım, bizi bağışla və bizə rəhm et. Bizə həm *bu* dünyada, həm də Axirətdə gözəl nemətlər ver və bizi Cəhənnəm əzabından qoru![1]

[1] Buxari, əl-Ədəb əl-Mufrad, 633.

# Müsəlmanı Cənnətə aparan möhtəşəm dua

Müsəlmanlara salam vermək, Allahın rəhmətinə qovuşduran əməllərdəndir. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "İman gətirməyincə Cənnətə girə bilməzsiniz. Bir-birinizi sevməyincə *tamam-kamal* iman gətirmiş olmazsınız. Sizə elə bir əməl öyrədimmi ki, onu etdikdə biri-birinizi sevəsiniz? Aranızda salamı yayın"[1]

Rəvayət edilir ki, *bir dəfə* Rəsulullah ﷺ məclisdə ikən bir nəfər gəlib: "Əssəlamu aleykum!"[2]– dedi. Rəsulullah ﷺ buyurdu: "*Bu adam* on savab *qazandı*." Sonra başqa birisi gəlib: "Əssəlamu aleykum və rahmətullah!"[3]– dedi. Rəsulullah ﷺ buyurdu: "*Bu adam* iyirmi savab *qazandı*." Sonra da

---

[1] Səhih Muslim, 54.

[2] Sizə salam olsun!

[3] Sizə salam olsun və Allahın rəhməti yetişsin!

başqa birisi gəlib: "Əssəlamu aleykum və rahmətullahi və bərəkatuhu!"[1]– dedi. Peyğəmbər ﷺ buyurdu: "*Bu adam* otuz savab *qazandı*." Sonra bir nəfər məclisdən qalxıb *getdi və* salam vermədi. Rəsulullah ﷺ dedi: "Dostunuz *salamı* nə tez unutdu. Qoy, sizlərdən biri məclisə gəldiyi zaman salam versin və əgər *orada* oturmağı məsləhət bilirsə, otursun. Məclisdən durub getdikdə də, salam versin. Əvvəlki salam sonuncu salamdan heç də üstün deyildir."[2]

---

[1] Sizə salam olsun, Allahın rəhməti və bərəkəti yetişsin!

[2] Səhih İbn Hibban, 493; Səhih əl-Ədəbul-Mufrad, 986.

# Müsəlmanlar üçün Allahdan bağışlanma diləmək

Ey müsəlman, yalnız özün üçün bağışlanma diləməklə kifayətlənmə, bununla yanaşı müsəlman qardaş və bacılarımızın hamısına – həyatda olanlara və dünyadan köçüb gedənlərə Allahdan bağışlanma dilə. Necə ki, sənin müsəlmanların edəcəyi duaya ehtiyacın var, eləcə də, onların sənin edəcəyin duaya ehtiyacları var. Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: **"Kim mömin kişilər və mömin qadınlar üçün *Allahdan* bağışlanma diləyərsə, Allah hər bir mömin kişi və mömin qadına görə ona bir savab yazar."**[1]

Əziz müsəlman, indi, belə bir dua sayəsində qazanacağın savabın nə dərəcədə əzəmətli və saysız-hesabsız olduğunu bir düşün. Sən hər dəfə: **"Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşları-**

[1] Məcməuz-Zəvaid, 10/2101; Səhih əl-Cami, 5906.

**mızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən, Sən olduqca şəfqətlisən, rəhmlisən!"**[1]– deyə dua etdikdə, indiyədək dünyaya gəlib-getmiş və hazırda həyatda olan hər bir möminə görə bir savab qazanırsan.

Rəvayət edilir ki,[2] İbn Cureyc ﷫ demişdir: "Mən Ətaya dedim: "Mömin kişilər və mömin qadınlar üçün *Allahdan* bağışlanma diləyimmi?" O dedi: "Bəli! Peyğəmbər ﷺ bunu əmr etmişdir. Bu, müsəlmanlara vacibdir. Uca Allah Öz Peyğəmbərinə ﷺ belə buyurmuşdur: **"Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə."**[3]

Həmçinin, rəvayət edilir ki, Abdullah ibn əl-Mubarək ﷫ Quranı xətm etdikdə,

---

[1] əl-Həşr, 10.

[2] Musannəf Abdurrəzaq, 2/217.

[3] Muhəmməd, 19.

mömin kişilər və mömin qadınlar üçün dua edərdi.[1]

Biləsiniz, müsəlmanın müsəlman qardaşı üçün etdiyi dua qəbuldur. Hətta uca Allah o müsəlmanın yanında hazır duran bir mələk təyin etmişdir. O, dua etdikdə, mələk amin deyir. Bu xüsusda, Rəsulullah ﷺ demişdir: **"Müsəlman bəndənin, yanında olmayan *mömin* qardaşı üçün etdiyi dua qəbuldur. Belə ki, dua edən adamın başı üzərində təyin olunmuş bir mələk vardır. Adam hər dəfə *mömin* qardaşı üçün dua edib xeyir dilədikdə mələk: "Amin, sənə də onun misli qədər yetişsin!"– deyər."**[2]

Mərhəmətli Allahdan istəyimiz budur ki, bizi, valideynlərimizi, müsəlman kişiləri və müsəlman qadınları, mömin kişiləri və mömin qadınları, onlardan həyatda olanları və dünyadan köçənləri bağışlasın!

---

[1] Beyhəqi, Şuəb əl-İman, 2/411.

[2] Səhih Muslim, 2732.

## Saleh əməllərə arxayın olmamaq

Ey müsəlman, bil ki, Cənnətə daxil olmaq üçün yalnız saleh əməllər etmək kifayət etmir. Əməllər, sadəcə, Cənnətə daxil olmaq üçün səbəbdir. Demək, mömin adam öz əməllərinə arxayın olmamalı və yalnız Allahın mərhəmətinə ümid bəsləməlidir. Əbu Hureyrənin ﵁ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: **“İsrail oğulları arasında *öz işlərində* səy göstərən iki nəfər var idi. Onlardan biri günah işlər görür, digəri isə çoxlu ibadət edirdi. Abid adam hər dəfə o birisinin günah işlətdiyini görəndə *ona*: “Əl çək *bu günahdan*!”– deyərdi. Bir gün yenə onun günah işlətdiyini görüb yenə ona: “Əl çək *bu günahdan*!”– dedi. O da, belə cavab verdi: “Rəbbimlə məni yalnız burax. Olmaya, mənim üstümə nəzarətçi qoyulmusan?” Onda abid dedi: “Vallahi, Allah səni bağışlamayacaq, yaxud Allah səni Cənnətə salmayacaq.” Nəhayət, *ölüm mələyi* onla-**

**rın canını aldıqdan sonra hər ikisi aləmlərin Rəbbi *olan Allahın* hüzuruna gətirildi və Allah abidə: "Sən Mənim nə qərar verəcəyimi bilirdinmi?! Yoxsa, Mənə mane ola biləcəyini düşünürdün?!"– dedi. Günahkara isə: "Get, Mənim mərhəmətim sayəsində Cənnətə daxil ol!"– dedi. Sonra abid barədə belə buyurdu: "Aparın bunu Cəhənnəmə!"**

Əbu Hureyrə رضي الله عنه dedi: "Canım Əlində olan *Allaha* and olsun ki, o *abid* dediyi bir kəlmə ilə həm dünyasını, həm də Axirətini məhv elədi!"[1]

[1] Sunən Əbu Davud, 4901; Musnəd Əhməd, 2/323; Səhih əl-Cami, 4455.

# Son söz

Əziz oxucu! Məlumun olsun ki, səhih hədisdə deyilir: **"Kim *öz diləyini* Allahdan istəməsə, Allahın ona qəzəbi tutar."**[1] Elə isə biz gecə-gündüz Allaha dua etməliyik ki, O, bizi bağışlasın, bizə rəhm etsin və bizi Öz mərhəməti sayəsində Firdovs cənnətinə daxil etsin. Peyğəmbər ﷺ ümmətini müjdələyib demişdir: **"Sizin Rəbbiniz Həyalı və Səxavətlidir. Əllərini Ona tərəf qaldırıb dua edən bəndəsinin əllərini boş qaytarmağa həya edir"**[2]

Hər bir müsəlman Allaha dua etdikdə, Peyğəmbərin ﷺ buyurduğu kimi dua etməlidir. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Duanızın qəbul olunacağına yəqin inandığınız halda Allaha dua edin! Bilin ki, Allah, qafil və etinasız qəlb-**

---

[1] Sunən ət-Tirmizi, 3373; Silsilə əl-Əhadis əs-Səhihə, 2654.

[2] Sunən Əbu Davud, 1488; Səhih əl-Cami, 2070.

**dən gələn duanı qəbul etmir."**[1] O, həmçinin, belə buyurmuşdur: **"Sizdən heç biriniz deməsin: "Allahım, əgər istəyirsənsə, məni bağışla, Allahım, əgər istəyirsənsə, mənə rəhm et!" Qoy, hər kəs qətiyyətlə dua etsin. Çünki heç kəs Allahı nəyəsə vadar edə bilməz."**[2]

Allahdan istəyimiz budur ki, bizim bu əməlimizə bərəkət versin və onu ixlasla – yalnız Onun rizasını qazanmaq məqsədilə yerinə yetirilmiş əməllərdən etsin, üstəlik, bu kitabı Qiyamətədək oxunacaq kitablardan etsin və onu, axirətdə qurulacaq tərəzidə savabı ağır gələn əməllərdən etsin!

Bu kitabı ərsəyə gətirməkdə bizə müvəffəqiyyət verən, işimizi asanlaşdıran və bizə lütf edən Allaha həmd edirik. Əvvəldə və axırda, aşkarda və gizlində olan bütün həmdlər yalnız Allaha məxsusdur.

[1] Sunən ət-Tirmizi, 3479; Silsilə əl-Əhadis əs-Səhihə, 594.

[2] Səhih əl-Buxari, 6388; Səhih Muslim, 2678.

Allahdan diləyirik ki, bizə öyrətdiklərini bizim hamımız üçün faydalı etsin, habelə, öyrəndiklərimizi bizim əleyhimizə yox, lehimizə bir hüccət etsin, qəlbimizi imanla doldursun, işlərimizi avand eləsin, üstəlik, son nəfəsimizədək doğru yolda olmağımız üçün bizə müvəffəqiyyət versin. Peyğəmbərimizin ﷺ sünnəsini yerinə yetirməyi, Peyğəmbərlə ﷺ birlikdə həşr edilməyi və Cənnətdə ona yaxın olmağı bizə nəsib etsin! Bizi, valideynlərimizi, cəmi müsəlman kişiləri və müsəlman qadınları, mömin kişiləri və mömin qadınları, onlardan həyatda olanları və dünyadan köçənləri bağışlasın. Şübhəsiz ki, Allah, Bağışlayandır, Rəhmlidir.

Peyğəmbərimiz Muhəmmədə ﷺ, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!

# *Mündəricat*

Müqəddimə .............................................. 3
Qayəmiz ................................................... 8
Ayə ilə hədisin izahı ............................. 10
“Bizi əfv et, bizi bağışla, bizə rəhm et!” . 13
Allahdan bağışlanma diləməyin fəziləti ...................................................... 16
Rəsulullahın ﷺ həyatından nümunələr ..................................................... 21
Allahdan bağışlanma diləmək Peyğəmbərlərin عليهم السلام sünnəsidir ................. 49
Qurandan seçilmiş dualar..................... 54
Sünnədən seçilmiş dualar .................... 62
Bəzi səhabələrin etdiyi dualar ............. 78
Müsəlmanı Cənnətə aparan möhtəşəm dua ................................................. 87
Müsəlmanlar üçün Allahdan bağışlanma diləmək ........................................ 89
Saleh əməllərə arxayın olmamaq ........ 92
Son söz ................................................... 94